
100 ilin qəzeti

ŞƏRQ QAPISI

Doğma, canım-varlığım qədər sevdiyim
Azərbaycanım mənim qibləgahımdır

Sayı: 1 (24.436)
11 yanvar 2025-ci il, şənbə

www.serqqapisi.az

Təsisçi: Naxçıvan Muxtar Respublikasının Ali Məclisi

# Milli ideyanın təntənəsi:

## konstitusion hüquqlara malik suveren Azərbaycan



**Prezident İlham ƏLİYEV:**

*“Bu gün Azərbaycan Respublikası xalqımızın milli maraqlarını rəhbər tutaraq, yeni reallıqlar şəraitində müstəqil siyasətini daha cəsarətlə, prinsipiallıqla davam etdirir, Konstitusiyanın tələblərinə və öz suveren hüquqlarına əsaslanaraq, qarşıda duran strateji hədəflərə doğru inamla irəliləyir.”*

Səhifə 2

### “Mən də bilirəm ki, arxamda Azərbaycan xalqı dayanır”



Səhifə 4

### Müzəffər Sərkərdənin və qəhrəman xalqın məramı: abadlaşan QARABAĞ



Səhifə 3

### Ordubad internat məktəbi şagirdlərinin diləkləri yerinə yetirilib



Səhifə 6

### Naxçıvan DİN-ə yeni xidməti avtomobillər verilib



Səhifə 7

### Yerlə göyün birləşdiyi diyar – Tivi



Səhifə 11

### Alın təri ilə islanan torpaq qurumaz



Səhifə 12

# Milli ideyanın təntənəsi:

## konstitusion hüquqlara malik suveren Azərbaycan



(əvvəli 1-ci səhifədə)

2025-ci ilin ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamında da deyildiyi kimi: *"Müstəqil və suveren dövlətə sahib olmaq, milli-mənəvi dəyərlərə, həmrəylik, humanizm, ədalət və qanunun aliliyi prinsiplərinə əsaslanan inkişaf etmiş cəmiyyət qurmaq yüz illər boyu Azərbaycan xalqının ən böyük arzusu olmuşdur. Tarixin müxtəlif mərhələlərində kənar müdaxilələrə, məhrumiyyətlərə baxmayaraq, xalqımız milli kimliyini, mübarizə ruhunu qoruyub saxlamış, öz ideallarına həmişə sadiq qalmış və XX əsrin sonlarında dövlət müstəqilliyini bərpa etmişdir".*

"Konstitusiya və Suverenlik İli" kimi tariximizə həkk olunacaq 2025-ci ildən ötən 30-35 illik zaman çərçivəsinə boylananda bugünkü qüdrətə, qalibiyyətə, ərazi bütövlüyü və dövlət suverenliyinə gələn yolun çətinliyi, keşməkeşliyi daha bariz şəkildə gözlərimiz önündə canlanır. Bir qədər yaxın keçmişə ekskurs etsək, görərik ki, 1991-ci il oktyabrın 18-də qəbul edilmiş "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktında yeni Konstitusiyanın hazırlanması nəzərdə tutulsa da, o zaman ölkəyə rəhbərlik edənlərin naşılığı, yarıtmaz fəaliyyəti nəticəsində xalqımız nəinki öz konstitusion hüquqlarını əldə edib, hətta varlığını belə itirmək təhlükəsi ilə üzləşib. Lakin Ümummilli Liderimiz Heydər Əliyev 1991-1993-cü illərdə Naxçıvanda Ali Məclisin Sədri kimi dövlətçiliyin bərpası yönündə həyata keçirdiyi tədbirlərin davamı olaraq 1993-cü ildə yenidən siyasi hakimiyyətə qayıdışı ilə ictimai-siyasi sabitliyi təmin etdi, müstəqil dövlət quruculuğu həyata keçirdi. Ulu Öndərin rəhbərliyi ilə hazırlanmış və 1995-ci il noyabrın 12-də qəbul olunmuş Azərbaycan Respublikasının ilk Konstitusiyası ölkəmizdə genişmiqyaslı qanunvericilik və institusional islahatların əsasını təşkil etdi. Konstitusiyada Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq əsas niyyətlərdən biri kimi bəyan edilib. Bu xüsusda onu qeyd etmək yerinə düşər ki, həmin niyyətlərə nail olmaq üçün həm dövlətimiz, həm də xalqımız birlik göstərərək 30 ilə yaxın haqq-ədalət mübarizəsi apardı. Nəhayət ki, 2020-ci ildə 44 günlük Vətən müharibəsi ilə əzəli, əbədi torpağımız olan Qarabağ azadlığına qovuşdu. 2023-cü ilin 19-20 sentyabrında həyata keçirilən lokal xarakterli antiterror tədbirləri sayəsində isə ərazi bütövlüyümüz və dövlət suverenliyimiz tam bərpa edildi, Azərbaycan Konstitusiyasının hüquqi qüvvəsi işğalın aradan qaldırıldığı bütün ərazilərdə bərqərar olundu. Bu proseslərin məntiqi davamı kimi, ölkə başçısının 2024-cü il 19 sentyabr tarixli Sərəncamına əsasən sentyabrın 20-si Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü elan edildi...

Yuxarıda qeyd etdiyimiz fikirlər əsasında yola çıxaraq deyə bilərik ki, Prezident cənab İlham Əliyev tərəfindən 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan olunması bir neçə vacib nüansları özündə ehtiva edir. Ali qanunun "Xalq hakimiyyəti" adlanan birinci fəslində bildirilir ki, Azərbaycan Respublikasında dövlət hakimiyyətinin yeganə mənbəyi Azərbaycan xalqıdır. Məhz bu baxımdan, eyni zamanda da Konstitusiyanın ümumxalq referendumu nəticəsində qəbul olunduğunu nəzərə alsaq, atılan mütərəqqi addım başlıca olaraq xalqın milli ideyasına, iradəsinə, seçiminə hörmətin əlamətidir. 2025-ci ili əlamətdar edən digər vacib məqam isə tarixi Zəfərimizin 5-ci ilinin tamam olmasıdır. Həmçinin 2023-cü ildə ölkəmiz dövlət suverenliyini də tam bərpa etdi və 2025-ci ilin həm Konstitusiya, həm də Suverenlik İli kimi də qeyd olunması, bu mənada, olduqca mühümdür. Dövlət başçısının bu Sərəncamı tarixi Zəfərimizin, ərazi bütövlüyü və suverenliyimizin bərpa olunması prosesində əsas hərəkətverici qüvvə sayılan, vaxtilə Ulu Öndər tərəfindən irəli sürülən və bu gün ən ali keyfiyyətləri özündə cəmləşdirən, dünya azərbaycanlılarını vahid məqsəd ətrafında birləşdirən həmrəylik ideyasının təntənəsidir...

Bu gün Azərbaycan dövləti xalqımızın milli maraqlarını əsas tutaraq yeni reallıqlar şəraitində müstəqil siyasətini daha cəsarətlə, prinsipiallıqla həyata keçirir, Konstitusiyanın tələblərinə və öz suveren hüquqlarına əsaslanaraq qarşıda duran strateji hədəflərə doğru inamla irəliləyir. Regional və beynəlxalq müstəvidə kifayət qədər söz və nüfuza malik olan ölkəmiz tarixi nailiyyətlərə imza atır, xarici təhdidlərə qarşı ideoloji təhlükəsizliyini etibarlı şəkildə təmin edir, hərbi qüdrətini artırır, Qarabağın, Şərqi Zəngəzurun bərpası prosesini uğurla reallaşdırır. Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə Konstitusiyada dövlətin əsasları kimi müəyyənləşdirilən demokratik, hüquqi, dünyəvi, unitar respublika prinsipləri üzərində nümunəvi idarəçilik modeli formalaşdırılıb. Respublikamızda yaradılan tolerantlıq mühiti burada yaşayan ayrı-ayrı xalqların öz dini bayramlarını, ayinlərini sərbəst şəkildə həyata keçirmələrinə əlverişli imkanlar açır, onların hüquqları ən yüksək səviyyədə təmin edilir.



Dövlətimiz Konstitusiyada da qeyd olunan, insan və vətəndaş hüquqlarının və azadlıqlarının, vətəndaşlara layiqli həyat səviyyəsinin təmin edilməsi kimi ali məqsədi daim üstün tutur. Bu məqsədlə yeni iş yerləri açılır, sosial layihələr icra olunur, əhalinin həssas qruplarının, o cümlədən şəhid və qazi ailələrinin mənzil-məişət şəraiti yaxşılaşdırılır. 2003-cü ildən bu günə kimi ölkə başçısı tərəfindən imzalanan fərman və sərəncamlar 15-dən çox yeni aylıq sosial ödəniş növünün təsis edilməsinə, habelə pensiya təminatında humanist yanaşmaların tətbiqi sosial təminat sisteminin əhəmiyyətli dərəcədə genişlənməsinə imkan yaradıb. Strateji inkişaf kursunun uğur göstəricisidir ki, Azərbaycan 2002-2022-ci illərdə yuxarı orta gəlirli ölkələr qrupuna daxil olub.

Hər il dövlət büdcəsinin təsdiqi zamanı büdcənin sosialyönümlü olmasına xüsusi diqqət yetirilir. Bunun nəticəsidir ki, 2003-2023-cü illərdə sosial təyinatlı büdcə xərcləri 20 dəfədən çox artıb. 2018-2023-cü illərdə isə 4 milyondan çox vətəndaşı əhatə edən, 7 milyard manatlıq 4 sosial islahat paketi icra olunub, minimum əməkhaqqı 2,7, pensiya məbləği isə 2,5 dəfə artıb. Yenicə qədəm qoyduğumuz 2025-ci ildə də minimum əməkhaqqı və pensiyanın məbləği artırıldı. Eyni zamanda Nazirlər Kabineti dövlət büdcəsindən maliyyələşən sahələrdə çalışan işçilərin Vahid Tarif Cədvəli ilə müəyyən edilmiş aylıq tarif (vəzifə) maaşlarının tənzimlənməsi haqqında qərarlarında dəyişiklik edərək əməkhaqqılara yeni artımları təsdiqlədi. Verilən son rəsmi açıqlamalara görə minimum əməkhaqqının artırılması, pensiyaların indeksləşdirilməsi 1 milyon 100 min, ümumi sosial paket isə 3 milyon vətəndaşı əhatə edəcək...

Artıq 5-ci ildir, qalib ölkə, müzəffər xalq olaraq təqvimin yeni ilinə böyük ruh yüksəkliyi, mühüm nailiyyətlər qazanmaq əzmiylə qədəm qoyuruq. Tariximizin "Konstitusiya və Suverenlik İli" adlanan 2025-ci ilində də bizi bu günümüzə qovuşduran, ilk Milli Konstitusiyamızın banisi Ulu Öndərin yoluna sədaqətlə dahi şəxsiyyətin aktuallığını daim qoruyan kəlamlarını hörmət və ehtiramla xatırlayaraq yolumuza inamla davam edirik: ***"Biz azadıq, müstəqilik, sərbəstik. Biz heç kəsdən asılı deyilik, özümüz öz taleyimizin sahibiyik. Bilirsiniz, bunun üçün, yalnız bunun üçün aylarla, illərlə əziyyət çəkmək olar. Məhz bunun üçün illərlə ac qalmaq olar. Çünki əsrlər boyu ulu babalarımız, Azərbaycanın mütəfəkkir insanları milli azadlıq, müstəqillik arzusu ilə yaşamışlar, milli azadlıq, müstəqillik üçün mübarizə aparmışlar, vuruşmuşlar, amma buna nail ola bilməmişlər. Biz buna nail olmuşuq".*** Bəli, bu gün Ümummilli Liderin layiqli davamçısı Prezident cənab İlham Əliyevlə birgə biz müstəqil olmaqla bərabər həm də qalibik, suverenik. "Konstitusiya və Suverenlik İli"nin ölkəmiz və xalqımız üçün xeyirli-uğurlu, yeni tarixi qələbələr ili olması diləyi ilə...

**Nail ƏSGƏROV**





# Müzəffər Sərkərdənin və qəhrəman xalqın məramı: abadlaşan QARABAĞ



**Zəfərin beşinci ildönümü astanasında**

Yeni ilə, yeni ümidlərə qədəm qoyanda qeyri-ixtiyari ötən günləri xatırlayır insan...Yeni yollar, yeni üfüqlər açıldıqca yada düşür keçmiş arzular, gerçəyə dönən xəyallar. Bəli, biz xalq olaraq müstəqilliyin ilk illərindən ta ki 2020-ci ilə kimi, hər il arzularımızın ilki Qarabağın azad edilməsi olub. Bu xalq nə az, nə çox, düz 29 il bu arzu ilə ili başa vurub gələn ili qarşıladı... Ümidlə, səbirlə gözlədik, gücləndikcə ümidlərimiz də artdı. Ali Baş Komandana, ordumuza inanıb səbir etdik. Və həmin gün, ilk müjdəni aldığımız gün bu xalq elə bir sevinc yaşadı ki, ürəyimizdəki fərəh göz yaşına döndü. Artıq şanlı qələbənin beşinci ildönümünü qeyd etməyə hazırlaşırıq. Beş ildir ki, Qarabağımızın necə çiçəkləndiyinə şahidlik edirik. Hər səhər öz yurduna dönən insanların sevincini görürük, Şuşada bitən xarıbülbülün ətrini duyuruq, Ağdamda bütün daşların öz yerinə oturduğuna şahid oluruq, Zəngilandan gələn körpə, Xocalıda çalınan toy səsini eşidirik. Qafqazın cənnətinə dönən Ağdamın ağ günlərini, dağlar cənnəti Kəlbəcərin gözəlliyini seyr edirik.Torpağına dönən insanlar suverenliyimizin bərpası, torpaqlarımızın azadlığı üçün canından, sağlamlığından keçən, döyüş meydanında qəhrəmanlıq göstərən hər bir hərbçiyə, Ali Baş Komandanına minnətdardır. Yeni ili öz evində qarşılayan şuşalı, ağdamlı, xocalılılar öz ocağında çırağını alovlandıranda bu Vətən üçün canından keçən oğulların da ruhu şad olur.

**Onlar doğma yurdlarına qayıdırlar**

Tarix bir çox xalqlar arasında müharibələrə şahid olub. Bu savaşların aparıldığı ölkələrin döyüşlərdən sonra hələ uzun müddət problemlər yaşadığı bir çoxumuza məlumdur. Tarixi faktlar sübut edir ki, SSRİ kimi nəhəng bir dövlət İkinci Dünya müharibəsindən sonrakı çətinliklərin öhdəsindən qısa zamanda gələ bilməyib. 44 günlük Vətən müharibəsində tarix yazan Azərbaycan dövləti sonrakı dövrdə də bu sahədə dünyaya nümunə göstərdi. Ordumuzun şanlı qələbəsinin davamı olaraq Qarabağ hərb meydanından quruculuq meydanına döndü. Torpaqlarımızı xarabaya çevirməklə kifayətlənməyən düşmən hər qarışa mina döşəmişdir. Lakin bütün bunlara baxmayaraq, dövlət başçısı, Ali Baş Komandan cənab İlham Əliyevin müdrik rəhbərliyi ilə doğma torpaqlarını 30 illik işğaldan azad edən Azərbaycanın müharibədən sonra cəmi bir il ərzində misilsiz bərpa-quruculuq işlərinə başlaması dünyanı heyrətə gətirdi. Həm də bu işləri dövlətimiz heç kimdən kömək istəmədən həyata keçirir. Kimsədən yardım almadan.

***“Qarabağın və Şərqi Zəngəzurun bərpası uğurla gedir. Artıq 10 minə yaxın keçmiş məcburi köçkün bu torpaqlara qayıdıb, onlar üçün ən gözəl şərait yaradılıb. Bütövlükdə isə azad edilmiş ərazilərdə 30 mindən çox insan yaşayır, çalışır, işləyir – yeni açılmış müəssisələrdə, sosial obyektlərdə, inşaat işlərində. Gələn il, təbii ki, oraya qayıdacaq vətəndaşların sayı böyük dərəcədə artacaq. Onu da bildirməliyəm ki, 2021-ci ildən bu günə qədər Qarabağın və Şərqi Zəngəzurun bərpasına Azərbaycan 19 milyard manatdan çox vəsait ayırıb və bundan sonra da Böyük Qayıdış proqramının icra edilməsi bizim üçün prioritet məsələ olacaqdır”.*** Bu fikirləri yeni ilə qədəm qoymağımıza dəqiqələr qalanda – 2024-cü ilin son günü, 31 dekabr gecəsi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev səsləndirəndə hər kəs bir daha əmin oldu ki, Qarabağ əbədi Azərbaycan torpağıdır və onun gələn günləri daha da gözəl olacaq. Hər bir vətəndaşın qəlbində gələcəyə ümid işığı bir daha yandı.

Biz artıq hər gün səhər “Laçına, Şuşaya, Zəngilana köç davam edir” xəbərlərini eşidir, oxuyuruq. Biz artıq işğaldan keçən yox, qələbədən ötən illəri sayırıq. Və nə xoş bizə ki xalqımızın firavan günlərini qələmə alır, Zəfər yolundan keçib gedən köç karvanından, ucsuz-bucaqsız zəmilərdə boy göstərən sarı sünbül dənizindən, yaşıllığı ilə gözoxşayan çinar meşələrindən bəhs edə, Füzuliyə, Zəngilana enən təyyarədə “Qarabağa xoş gəlmisiniz!” sədasını eşidə bilirik. Və bütün bunlar bizi bir daha əmin edir ki, “Konstitusiya və Suverenlik İli” də bütöv Azərbaycanın tarixinə qızıl hərflərlə həkk olunacaq.

**✍ Ramiyə ƏKBƏROVA**













# “Mən də bilirəm ki, arxamda Azərbaycan xalqı dayanır”



Prezident cənab İlham Əliyevin yerli televiziya kanallarına budəfəki müsahibəsi də yaşadığımız dövrün gün ötdükcə tündləşən geosiyasi mənzərəsinə aydınlıq gətirdi. Ölkə başçısı yaxın Şərqdə baş verən hadisələri, Qərbin, xüsusilə də Fransanın cəfəng siyasi oyunlarını, manipulyasiyaları, İsrail-Fələstin müharibəsini, Suriyada Əsəd diktatura rejiminin çökməsinin bölgə üçün açdığı yeni əməkdaşlıq perspektivlərini, Azərbaycan-Türkiyə əlaqələrinin yüksələn xətlə inkişafını, Azərbaycan-Amerika münasibətlərindən gözləntiləri, Ermənistanla mövcud vəziyyəti, aparılan böyük qayıdış siyasətini və dünya düzəninin dəyişilməsi yönündə baş verən digər qlobal prosesləri praqmatik yanaşma tərzi ilə təhlil etdi, gələcəyə dair mühüm mesajlar verdi. Azərbaycanın dövlət siyasətinin əsas məqsədinin regionda, Cənubi Qafqazda sülh, əmin-amanlıq yaratmaq olduğunu vurğulayan Prezident Naxçıvanla ölkənin digər ərazilərinin nəqliyyat əlaqələrinin bərpasına, Zəngəzur dəhlizinin açılmasına dair qətiyyətli mövqeyini bir daha ortaya qoydu. Sitat: ***“Biz istəyirik ki, Cənubi Qafqazda sülh olsun, əməkdaşlıq olsun, onlar bizə mane olmasınlar. Onlar Türkiyə ilə Azərbaycan arasında coğrafi manea kimi fəaliyyət göstərməsinlər. Zəngəzur dəhlizi açılmalıdır və açılacaqdır. Onlar bunu nə qədər tez başa düşsələr, o qədər də yaxşıdır. Biz belə vəziyyətdə qala bilmərik. Biz Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvana niyə müxtəlif, başqa yollarla getməliyik? Bizim birbaşa əlaqəmiz olmalıdır və bu əlaqə Ermənistanın suverenliyini şübhə altına qoymur. Sadəcə olaraq, onlar 10 noyabr Bəyanatının müddəalarını yerinə yetirməlidirlər”.***

Müsahibədə ölkə başçısı Azərbaycan dövlətinin əsas hədəfləri sırasında hərbi qüdrətin artırılması və Qarabağın, Şərqi Zəngəzurun bərpasının dayandığını növbəti dəfə vurğuladı. Bu xüsusda Azərbaycanın 2030-cu ilədək beş Milli Prioritetindən biri kimi müəyyən olunmuş “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”nın icrasını qeyd etmək lazımdır. Dövlət sənədində Böyük Qayıdışla bağlı təsbit olunmuş iki məqsəd – əhalinin dayanıqlı məskunlaşması və ərazilərin iqtisadi fəaliyyətə reinteqrasiyası çərçivəsində müəyyən edilib ki, hər iki istiqamət üzrə ötən dövrdə xarici media orqanlarında da gündəm yaradan əhəmiyyətli işlər icra olunub, layihələr reallaşdırılıb. Ölkə başçısı Qarabağa və Şərqi Zəngəzura müntəzəm səfərləri zamanı bərpa-quruculuq işləri ilə tanış olub, yaşayış məntəqələrinin, vacib infrastruktur obyektlərinin açılışlarında, təməlqoyma mərasimlərində iştirak edib. Ümumiyyətlə, proqramın qəbulundan ötən üç il ərzində Qarabağa məxsus milli-mənəvi dəyərlər, adət-ənənələr, tarix, mədəniyyət, turizm cəlbediciliyi, bölgəyə məxsus məhsulların şöhrəti özünə qaytarılıb, yaşayış məntəqələri üçün müasir infrastruktur quruculuğu aparılıb, “yaşıl enerji” potensialından istifadə imkanları genişləndirilib, 30-dan çox su elektrik stansiyası tikilib, dəmir yolları qurulub, 10 yaşayış məntəqəsinə soydaşlarımızın köçü həyata keçirilib. On mindən çox köçkün artıq evlərlə, daimi yaşayışla təmin edilib. Hazırda proqramın icrası uğurla aparılır, 60 kilometrdən çox tunellər, körpülər, elektrik stansiyaları, su anbarları inşa edilir. Ölkə başçısı jurnalistlərə müsahibəsində Böyük Qayıdışa dair 2025-ci il üçün nəzərdə tutulan layihələrdən də qısaca söz açaraq bildirdi ki, bu il planlarda daha 20-yə yaxın yaşayış məntəqəsinə keçmiş köçkünləri qaytarmaq var. Həmin şəhər və kəndlərin adları artıq seçilib, layihələr icra edilir. Bir çox kəndlərdə, şəhərlərdə hazırda inşaat işləri gedir və bu ilin sonuna qədər 30-a yaxın yaşayış məntəqəsində keçmiş köçkünlər məskunlaşacaqlar...

Son illərdə ölkəmizdə iqtisadiyyatın şaxələndirilməsi məqsədilə uğurlu sənayeləşmə siyasəti aparılır ki, bu xüsusda sənaye parklarının yaradılması mühüm səmərəsi ilə seçilir. “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”nda da yaşayış məntəqələrinin yenidən qurulması, məcburi köçkünlərin öz doğma yurdlarına köçürülməsinin təmini ilə yanaşı, Qarabağda, Şərqi Zəngəzurda sənaye müəssisələrinin, parkların qurulması əsas prioritetlərdəndir. Hazırda ölkə üzrə 8 rayonu əhatə edən “Araz Vadisi İqtisadi Zonası” Sənaye parkları fəaliyyət göstərir ki, onlardan da ikisi işğaldan azad olunan Ağdam və Cəbrayıl rayonlarında yerləşir. Ötən il istifadəyə verilən Ağdam Sənaye Parkındakı divar kağızları istehsalı zavodu sentyabr ayından fəaliyyətə başlayıb. Müəssisədə istehsal olunan məhsulların daxili bazarda satışı ilə yanaşı, xarici ölkələrə ixracı da nəzərdə tutulur. Artıq Gürcüstana ilk məhsul ixracı həyata keçirilib. 2025-ci ildə istehsalın 30 faizi, 2026-cı ildən isə 50 faizdən çoxu ixrac üçün nəzərdə tutulub. Hazırda bununla bağlı Qazaxıstan, Özbəkistan, Tacikistan və Qırğızıstanla danışıqlar aparılır. Prezident cənab İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində də Ağdam şəhərində yaradılmış Sənaye Parkının məhsullarının xaricə ixracını yüksək qiymətləndirdi. Ölkə başçısı Qarabağ, Şərqi Zəngəzurla yanaşı, Naxçıvan Muxtar Respublikası ilə bağlı iqtisadi, sosial, “yaşıl enerji” və təhlükəsizlik nöqteyi-nəzərdən planların olduğuna diqqəti çəkdi və gələcəkdə bu nümunələrin ölkəmizin digər bölgələrində də tətbiq ediləcəyini vurğuladı: ***“Biz bu il Naxçıvan və Ordubad şəhərlərinin Baş planlarının hazırlanmasına da başlayırıq. Ondan sonrakı illərdə Naxçıvan Muxtar Respublikasının digər şəhərlərinin Baş planlarının hazırlanmasına başlayacağıq. Qarabağ və Şərqi Zəngəzurdakı bütün yaşayış məntəqələri vahid Baş plan əsasında qurulur. Bu, bir nümunə olacaq. Sonra biz bunu ölkəmizin digər bölgələrində də tətbiq edəcəyik. Yəni orada həm idarəetmə, həm infrastruktur, həm də “yaşıl enerji” layihələri bütün ölkəni əhatə edəcək. Bax bizim planlarımız bundan ibarətdir”.***

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yanvarın 7-də yerli televiziya kanallarına müsahibəsində diqqətçəkən mühüm məqamlardan biri də Qərbi Azərbaycana qayıdış məsələsi idi. Bəli, ölkə başçısının dəfələrlə çıxışlarında bildirdiyi kimi, Tarixi Zəfərimizlə yekunlaşan 44 günlük Vətən müharibəsindən sonra regionda yaranan yeni reallıqlar fonunda soydaşlarımızın Qərbi Azərbaycan torpaqlarına qayıdışı missiyası da qarşıda duran əsas hədəflərdəndir. Bu xüsusda fundamental şəkildə hazırlanan Qərbi Azərbaycana Qayıdış Konsepsiyası böyük əhəmiyyətə malikdir. Beynəlxalq hüquqa, tarixi faktlara əsaslanan, ədalətin və sülhün bərqərar olunmasına xidmət edən bu mühüm dövlət sənədi azərbaycanlıların öz tarixi yurdlarına sülh yolu ilə, təhlükəsiz və ləyaqətli şəkildə qayıtmasını təmin etmək məqsədi daşıyır. Başqa sözlə, təxribatçı əməllərlə məşğul olan qarşı tərəfdən fərqli olaraq Azərbaycan dövləti bütün məsələlərdə ədalətli mövqedə dayanır, humanizm prinsipləri üzərindən hərəkət edir, 300 minə yaxın soydaşımızın hüquqlarının bərpasına dair faktlarla, sübutlarla danışır: ***“XIX əsr rus imperiyasının xəritələrinə baxın. Orada bütün toponimlərin Azərbaycan mənşəli olması göz önündədir, ya da rus imperiyasının XX əsrin əvvəllərində tərtib edilmiş xəritələri. Orada da bütün şəhərlərin adları Azərbaycan mənşəlidir. Orada siz “Sevan gölü” adlı bir göl görməzsiniz. Orada Göyçə gölü yazılıb. Biz deyəndə ki, bu bizim tarixi torpağımızdır, biz həqiqəti deyirik”.*** Məhz bu qeyd etdiyimiz dəyişilməz mövqe, prinsiplər əsasında ötən bir neçə ildə Qərbi Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması üçün mütərəqqi işlər həyata keçirilib, elmi əsərlər, monoqrafiyalar yazılıb, Dərələyəzdən, Göyçədən, İrəvandan və digər torpaqlardan didərgin düşən soydaşlarımızın keçmişdəki yaşayışına, orada məskunlaşmasına dair tarixi xəritələr çap etdirilib. 1987-1988-ci illərdə başlayan sonuncu deportasiya zamanı soydaşlarımıza qol-qanad açan Naxçıvan da qayıdış konsepsiyasının icrasına töhfələr verib, 2023-2024-cü illərdə muxtar respublikada “Qərbi Azərbaycana qayıdış” festival-konqresləri keçirilib, bu tədbir ictimai-siyasi əhəmiyyəti, elmi-mədəni dəyəri ilə seçilib, təqdir edilib...

## Prezident İlham ƏLİYEV:

**“Bu gün hər yerdə və hər sahədə gedən inkişafın təməlində məhz xoş əhvali-ruhiyyə, xoş ovqat, cəmiyyətimizin rahat yaşaması, özünə əminlik hissləri dayanır. Mən də bilirəm ki, arxamda Azərbaycan xalqı dayanır. Azərbaycan xalqı da bilir ki, mən onun arxasında dayanıram, yəni bu, xüsusi bir hissdir. Bunu, yəqin ki, bir çoxları yaşamayıb. Xüsusilə hər iki dövrdə ölkəyə rəhbərlik edən şəxs kimi, bəlkə də bu, unikal təcrübədir.”**

Tarixə qovuşan hər ötən gün bir daha təsdiqləyir, sübut edir ki, 1993-cü ildən bəri Azərbaycan xalqı doğru, düzgün yola qədəm qoyub, bu istiqamətdə uğurla, inamla irəliləyir, Ulu Öndərin layiqli davamçısı Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin ətrafında sıx birləşməklə tarixi qələbələrə imza atır. Ölkəmiz dünyada gedən müharibə və münaqişələrdən uzaq qalmağı bacarır, sabitlik, əmin-amanlıq adası, inkişaf məkanı kimi tanınır, nümunə göstərilir. Hər bir həmvətənimiz əmindir ki, dövlətimizin siyasi, iqtisadi gücü, qüdrəti sayəsində gələn illər özü ilə bərabər yurdumuza, elimizə firavanlıq, rifah gətirir, yaşayıb-yaratmaq amalı aşılayır. Azərbaycan xalqı hər zaman öz Qalib Liderinin arxasındadır, yanındadır, Qalib Lider də xalqımızın hüquqlarını ən yüksək şəkildə qoruyur, müdafiə edir və ən çətin sınaqlardan üzüağ çıxan bu sarsılmaz birlik, həmrəylik yeni nailiyyətlərə, uğurlara vəsilə olur. ***“Bu gün hər yerdə və hər sahədə gedən inkişafın təməlində məhz xoş əhvali-ruhiyyə, xoş ovqat, cəmiyyətimizin rahat yaşaması, özünə əminlik hissləri dayanır. Mən də bilirəm ki, arxamda Azərbaycan xalqı dayanır. Azərbaycan xalqı da bilir ki, mən onun arxasında dayanıram, yəni bu, xüsusi bir hissdir. Bunu, yəqin ki, bir çoxları yaşamayıb. Xüsusilə hər iki dövrdə ölkəyə rəhbərlik edən şəxs kimi, bəlkə də bu, unikal təcrübədir”*** sitatın sonu!

**Nail ƏSGƏROV**



# Azərbaycan dünya düzəninə ciddi töhfə verən güclü, suveren dövlətdir

İqtisadi gücün və siyasi nüfuzun qlobal siyasi arenada aparıcı rol oynadığı müasir dövrdə ölkələrin liderlərinin üzərinə dünyada bərqərar olmuş düzəni qoruyub saxlamaq, bütün xalqların sülh içində yaşaması üçün gərgin iş aparmaq məsuliyyəti düşür. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev yanvarın 7-də yerli televiziya kanallarına müsahibəsində ölkəmizin gələcək regional və qlobal siyasi oriyentasiyasının dünya düzəninə töhfə verməsi, buna nail olmaq üçün isə güclü iqtisadiyyata və suverenlik hüququna əsaslanan xarici siyasətin aparılmasını vurğuladı. Yeni ilin ilk iş həftəsində dövlət başçımızın hamının maraqla gözlədiyi açıqlamaları bu baxımdan nüanslarla zəngin olub, ilk dəfə səslənən fikirləri də yadda qaldı.

Azərbaycanın son illərdə siyasi, hərbi və geostrateji zəmində qazandığı uğurların əsasında məhz ölkəmizin güclü iqtisadi potensialı və bu potensiala qovuşmaq üçün dövlət başçımızın müəllifliyi ilə reallaşan irimiqyaslı layihələr dayanır. Ölkəmizin enerji tərəfdaşları, digər xarici iqtisadi partnyorları ilə yaratdığı etibarlı əməkdaşlıqla və qeyri-neft sektoru sahəsində qazandığı uğurları sayəsində ötən il Azərbaycanda ümumi daxili məhsulda 4, qeyri-neft sektorunda 6, qeyri-neft sənaye sektorunda 7 faizdən çox artım əldə olunması, valyuta ehtiyatlarının, təqribən, 5 milyard dollardan çox artaraq 72 milyard dollara çatması, xarici borcun həcminin ümumi daxili məhsulun həcminin cəmi 7,2 faizini təşkil etməsi, yaxud valyuta ehtiyatları həcminin xarici borcun həcmini 14 dəfə üstələməsi ötən dövrdə həyata keçirilmiş tədbirlərin bəhrəsi kimi dəyərləndirilməlidir. Bütün bunlar 10 milyon əhalisi olan bir ölkə üçün olduqca ciddi nailiyyətlərdir və Azərbaycanın cəmi 5,2 milyard dollar olan xarici borcunu gələcəkdə daha da azaltmaq hədəfi iqtisadi gücümüzün və siyasi müstəqilliyimizin nümayişidir. Belə ki, bu güc cari ildə ölkəmizin dövlət büdcəsinin xərclərinin də artmasına təsir edərək Azərbaycan tarixində ən böyük həcmə – 41 milyard manata çatmağına imkan yaradıb. Şübhəsiz, bu xərclər içərisində Azərbaycan Respublikası vətəndaşlarının daha təhlükəsiz və yaxşı yaşaması üçün ayrılan müdafiə xərclərinin, əməkhaqqı və pensiya məbləğlərinin, sosial müavinətlərin artımı cəlbedicidir və bunlar, ümumilikdə, ölkəmizin iqtisadi müstəqilliyini təmin edir. Dövlət başçımızın müsahibədə vurğuladığı kimi: ***"Hər bir ölkənin siyasi müstəqilliyi onun iqtisadi müstəqilliyindən asılıdır".***

Ötən il Azərbaycan COP29-un ev sahibi kimi qlobal iqlim böhranına qarşı planetar mübarizənin lideri olması ilə də bütün dünyanın diqqət mərkəzində oldu. Dövlət başçımız müsahibəsində ölkəmizdə ingilis dilində fəaliyyət göstərən beynəlxalq kanal əməkdaşının bu mühüm tədbirin əhəmiyyəti və bəzi dövlətlərin göstərdiyi münasibətlə bağlı sualına verdiyi cavab da olduqca maraqlı idi. Belə ki, ölkə Prezidentinin açıqladığı kimi qlobal iqlim sammitinə çox qısa müddətdə hazırlaşıb, onu ən yüksək səviyyədə təşkil edə bilən Azərbaycanın BMT səviyyəsindəki bu tədbirə "Bakı nailiyyəti" ilə imza atması, təqribən, 10 il ərzində tərəflərin razılığa gələ bilmədiyi karbon bazarına dair Paris Sazişinin 6-cı maddəsi üzrə razılıq əldə edilməsi, maliyyələşmə məsələsində qarşıdan gələn illər üçün nəzərdə tutulmuş məbləği 3 dəfə artıraraq məhz Bakıda 300 milyard dollara çatdırılması və ümumilikdə, Azərbaycanın irəli sürdüyü 14 təşəbbüs ölkəmiz tərəfindən gələcək üçün layiqli bir miras oldu. Ancaq səksəni dövlət və hökumət başçısı olmaqla, ümumilikdə, 197 ölkədən Azərbaycana gəlmiş 76 min iştirakçının qatıldığı COP29 tədbirinə sırf siyasi motivlər səbəbindən qatılmayan və öz aləmində guya bunu boykot etmək istəyən Fransanın və Avropa Komissiyasının Prezidentinin iştirak etməməsi bu mühüm qlobal sammitin işinə qətiyyən kölgə salmamış, əksinə, bu hərəkət onların öz imicinə güclü zərbə vurmuşdur. Hər halda, həmkarlarına bir-bir zəng edərək onları Bakıya getməməyi üçün dilə tutan Fransa prezidentinin araqarışdırıcı simasından başqa bir müsbət şey də gözləmək çətindir.

Əslində isə Qarabağın 30 illik işğalı dövründə "Minsk qrupu"nun həmsədrlərindən biri olmuş Fransadan başqa hərəkət gözləmək də sadəlövhlük olardı. Dövlət başçımızın da müsahibədə qeyd etdiyi kimi, baxmayaraq ki, Azərbaycan Fransa ilə münasibətdə qapıları həmişə açıq saxlamış, iqtisadi və mədəni əlaqələrə diqqət yetirilmiş, hətta Fransanın 13 şəhəri ilə qardaşlaşmış münasibətlər mövcud olmuşdur, ancaq sırf erməni lobbisinin seçki dəstəyi üçün oturduğu qayığın yönünü dəyişən Fransa prezidentlərinin bu ölkənin tarixinə qara ləkə kimi düşmüş müstəmləkə ərazilərinin istismarı yerinə bu torpaqlarda yaşayan insanların normal həyatını təmin etməsini bir yana buraxıb tam suverenliyini bərpa etmiş Azərbaycana qarşı əsassız iddialar qaldırması bu ölkənin düşdüyü mənəvi bataqlıqdan qurtulması üçün, sadəcə, bir bəhanədir. Başqa sözlə, Fransa özündən bir neçə min kilometrlərlə uzaqda olan və onunla heç bir ortaq problemi olmayan Azərbaycanla münasibətləri özü üçün daxili siyasət mövzusu etməklə Sena çayının üfunətli qoxusunu ört-basdır etməyə çalışır. Ancaq bütün bunlar, eləcə də Fransa kimi mənəvi deqradasiya keçirən digər Qərb dövlətlərinin də Cənubi Qafqazda çaxnaşma yaratmaq cəhdləri məhz Azərbaycanın, onun liderinin sərt mövqeyinə tuş gəlməklə iflasa uğramışdır. Bu, dövlət başçımızın Azərbaycanın maraqları naminə dünya düzəninə töhfə verən, ölkəmizlə münasibətlərində qardaşlıq və səmimiyyət göstərənləri eyni dərəcədə qiymətləndirən, nankorları isə ifşa edən qətiyyətli siyasətinin nəticəsində mümkün olmuşdur.

Azərbaycan çoxmillətli tolerantlığı ilə seçilən müsəlman ölkəsidir. Dünyadakı 60-a yaxın müsəlman ölkəsi ilə sıx mənəvi əlaqələri olan Azərbaycan həmişə beynəlxalq platformalarda İslam və müsəlman dövlətlərinin lehinə səs vermiş və bu gün də bu siyasətini davam etdirməkdədir. Elə ötən il bir milyarddan çox əhalisi olan və müsəlman ölkələrinin iqtisadiyyatının 60 faizini təşkil edən D-8 təşkilatına Azərbaycanın yeni üzv kimi seçilməsi 5 trilyon dollardan çox ümumi daxili məhsulu olan bu böyük təşkilatın Qafqaz həm də Xəzər regionuna genişlənməsi və yeni dünya nizamı formalaşdırılmasına müsbət töhfəsi deməkdir. Ərazilərinin 20 faizi otuz il ərzində işğal altında qalaraq buradakı müsəlman dini məkanları da erməni vandalları tərəfindən dağıdılmış Azərbaycanın İslam dünyası ilə sıx əlaqələri, eləcə də ötən həftə Suriyaya humanitar yardımlar göstərməsi, qardaş Türkiyə ilə əl-ələ verib bütün məsələlərdə dünya müsəlmanlarının yanında olması dövlət başçımızın dili ilə növbəti dəfə bu mövzuya maraq göstərənlərin diqqətinə çatdırıldı. Bu faktları, xüsusən Qarabağ düşmən tapdağından azad olunduqdan sonra da buranı Azərbaycan torpağı kimi tanımayanların gülünc hərəkətlərini yada salan Prezident cənab İlham Əliyev bununla da Cənubi Qafqazda güc və nüfuz sahibinin də kim olduğunu bir daha aid tərəfə ərz etmiş oldu.

2025-ci il, bütövlükdə, qarşıdakı dövr dünyada bir sıra kardinal dəyişiklikləri vəd edir. Dünya düzəninin sürətlə yeni formata keçdiyi bu dövrdə hər bir geosiyasi oyunçunun masadakı mövqeyi onun liderinin və müttəfiqlərinin gücündən çox asılıdır. Bu mənada, siyasi səhnədə iri güclərə qarşı dayanan ölkələrin mövqeyinin onların liderlərinin nüfuzu ilə birbaşa bağlı olduğunu diqqətə çatdıran dövlət başçımızın fikrincə, yeni dünya düzənində söz sahibi olmaq üçün Azərbaycanın əlində güclü imkanlar vardır. Bu, qlobal Şimalla qlobal Cənub arasındakı ənənəvi qarşıdurmada Azərbaycanın uzlaşdırıcı mövqeyi, Orta Dəhliz və gec-tez bir gün mütləq açılacaq və Naxçıvana birbaşa çıxışı təmin edəcək olan Zəngəzur dəhlizi üzərindəki aparıcı açar mövqeyi və şübhəsiz ki, Ermənistanla imzalanacaq sülh müqaviləsində ölkəmizin diqtə edən tərəf olması ilə bağlıdır. Məhz bu baxımdan hər nə qədər mülki missiya adı altında olsa da, Ermənistanla sərhəddən binokla ölkəmizi güdən "rəngarəng" Avropanın, əslində, nə iş gördüyünü, ölkəmizə qarşı müxtəlif vasitələrlə pozuculuq və qarışdırıcı əməllərlə məşğul olmaq üçün min oyundan çıxdıqlarını tamamilə konkret faktlarla ifşa edən dövlət başçımız bu cür təhdidlərə qarşı Azərbaycanın həmişə ayıq-sayıq olduğunu da bəyan etdi. Prezident bu müsahibəsində də Avropanı tutduğu mövqeyə yenidən baxmağa dəvət edərək onlara qarşı heç vaxt ədalətsiz davranmamış Azərbaycanı etibarlı tərəfdaş kimi qiymətləndirməyi tövsiyə edib, qalın divarlar və ya qaranlıq tunellər əvəzinə etibarlı körpülər tikməyin faydasını bir daha diqqətə çatdırdı. Hər halda hazırkı mürəkkəb vəziyyətdə Avropanın Azərbaycana ehtiyacı daha çoxdur.

Müstəqillik qazandıqdan sonra faşizmyönlü insanların rəhbərlik etmiş olduğu Ermənistana növbəti xəbərdarlıqlarını da bu müsahibəsində çatdıran Prezident cənab İlham Əliyev ötən il Qazaxın 4 kəndinin dinc yolla geri alınmasını regional sülh naminə mühüm nailiyyət adlandıraraq iki ölkə arasında əldə olunmuş bu razılaşmanın dialoq deyil, monoloq yolu ilə əldə olunduğunu bəyan etməklə, güman ki, yaxın gələcəkdə tez-tez eşidəcəyimiz yeni bir populyar ifadəni də siyasət leksikonuna daxil etdi. Dövlət başçımızın çox da uzaqda olmayan keçmişdən yaxşı xatırladığımız məşhur ***"Qarabağ Azərbaycandır!"***, ***"Dəmir yumruq" yerindədir!"***, ***"Gorbagor olmuş status!"*** ifadələri kimi Ermənistanın da dialoq yolu ilə deyil, monoloq yolu ilə yola gəldiyini bəyan etməsini bir çoxları hələ uzun müddət xatırlayacaq. Bu mənada, son dörd ilin dərslərini unutmayan revanşist Ermənistan, əslində, monoloq yolu ilə ona düz yol göstərən Azərbaycan Prezidentinə minnətdar da olmalıdır. Dövlət başçımızın vurğuladığı kimi, əgər hazırkı Ermənistan rəhbərliyi silahlanma yerinə öz gündəliyinə qərbi azərbaycanlıların pozulmuş insan hüquqlarının bərpasını da daxil edərsə, bu onlar üçün ən düzgün yol olacaqdır.

Azərbaycanın isə istər cari, istərsə də qarşıdan gələn illərdə görəcəyi çox işlər vardır. Qəhrəman ordumuzun döyüş qabiliyyətinin daha da möhkəmləndirilməsi ilə yanaşı, Qarabağ və Şərqi Zəngəzurun bərpasının davam etdirilməsi və Böyük Qayıdışın sürətləndirilməsi qarşıdakı illərdə əsas vəzifələr kimi qalacaqdır. Xalqımızın güclü dəstəyinə arxalanan dövlət başçımız cənab İlham Əliyevin rəhbərliyi ilə yerinə yetiriləcək bu vəzifələr artıq dünya düzəninə ciddi töhfə verən güclü ölkəmizin suveren hüququdur.

**Əli CABBAROV**

# Ağbulaqda bayram şənliyi keçirilib





Naxçıvan Muxtar Respublikası Ali Məclisinin təşəbbüsü ilə Ağbulaq İstirahət Mərkəzində Məhəmməd Füzuli adına Ordubad şəhər tam orta internat məktəbində təhsil alan xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün Yeni il şənliyi təşkil olunub.

Tədbirdə Ali Məclis sədrinin birinci müavini Bəxtiyar Məmmədov iştirak edib.

Bayram süfrəsi ətrafında şagirdlərlə səmimi söhbət edilib, onların sevinc dolu anlar yaşaması üçün "Şaxta baba" tərəfindən müxtəlif əyləncəli proqramlar nümayiş olunub.

Sonda 60 şagirdə bayram hədiyyələri təqdim edilib, şən anlar birlikdə çəkilən xatirə şəkilləri ilə əbədiləşdirilib.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Könüllülər üçün seminar təşkil edilib




Medianın İnkişafı Agentliyinin Naxçıvan regional idarəsinin təşkilatçılığı ilə könüllülər üçün seminar keçirilib.

Seminarda açılış nitqi ilə çıxış edən Medianın İnkişafı Agentliyinin Naxçıvan regional idarəsinin müdiri Vəfa İsgəndərova könüllülərin belə tədbirlərdə iştirakının onların gələcək peşəkar inkişafına və müasir media trendləri barədə məlumatlılıq səviyyələrinin yüksəldilməsinə müsbət təsir göstərəcəyini, həmçinin media məhsullarının istehsalı və istehlakı prosesində fərqindəliklərinin artırılmasına kömək edəcəyini bildirib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin əməkdaşı Günay Nəzərova "Audiovizual yayımda doğru xəbərin hazırlanması" mövzusunda çıxış edərək medianın əsas prinsipləri, informasiyanın düzgün ötürülməsi, ictimaiyyətlə əlaqələrin idarə edilməsi və etik davranış qaydaları haqqında danışıb, sosial mediada yayılan informasiyanın təhlili, yanlış məlumatların qarşısının alınması və dezinformasiyaya qarşı mübarizə üsulları barədə praktik nümunələr təqdim edib.

Sonda Naxçıvan MEDİA könüllülərinin sualları cavablandırılıb.

# Ordubad internat məktəbi şagirdlərinin diləkləri yerinə yetirilib




Yanvarın 10-da Ordubad şəhər tam orta internat məktəbində təhsil alan şagirdlərlə görüş keçirilib.

Naxçıvan şəhərində keçirilən "Snowfest" çərçivəsində məktəb şagirdlərinin yeni il arzularını ifadə etdikləri dilək yolkasına yazılan istəklər reallaşdırılıb. Ümumilikdə, 61 şagirdin diləkləri nəzərə alınaraq onların istəklərinə uyğun hədiyyələr hazırlanıb və sahiblərinə təqdim olunub.

Tədbirdə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin əməkdaşı Günay Nəzərova, Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova, Naxçıvan Şəhər İcra Hakimiyyəti başçısının müavini Gülxanım Orucova, Ordubad Rayon İcra Hakimiyyəti başçısının müavini Fərqanə Hüseynova, Ordubad şəhər tam orta internat məktəbinin direktoru Məzahir Xəlilov çıxış edərək şagirdləri Yeni il münasibətilə təbrik edib, onlara təhsillərində və gələcək həyatlarında uğurlar arzulayıblar. Görüş ölkəmizdə sosial qayğıya ehtiyacı olan uşaqlara göstərilən diqqət və qayğının daha bir təzahürü kimi qiymətləndirilib və bu cür ənənəvi bayram görüşlərinin bundan sonra da davam etdiriləcəyi bildirilib.

Qeyd olunub ki, artıq ikinci ildir, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin təşəbbüsü ilə Naxçıvan şəhərində keçirilən "Snowfest" çərçivəsində Ordubad şəhər tam orta internat məktəbin şagirdlərinin yeni il arzuları əks olunan dilək yolkası qurulur. Naxçıvan Şəhər İcra Hakimiyyətinin dəstəyi ilə muxtar respublikanın dövlət qurumlarının rəhbərləri Ordubad şəhər tam orta internat məktəbi şagirdlərinin fərdi arzularını reallaşdırır.

Sonda xatirə şəkli çəkdirilib.

# Naxçıvanda Həmrəylik Günü və Yeni il münasibətilə atəşfəşanlıq olub




31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni ilin gəlişi Naxçıvan şəhərində qeyd edilib.

Muxtar respublikanın dövlət və hökumət nümayəndələri, minlərlə sakin və qədim diyarın qonaqları şəhərin baş meydanında "Snowfest" çərçivəsində təşkil olunan bayram konsertini izləyib, müğənni Elnur Məmmədovun rəngarəng ifalarını dinləyiblər.



Prezident cənab İlham Əliyevin 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə Azərbaycan xalqına müraciəti meydanda quraşdırılan monitor vasitəsilə yayımlanıb.

Yeni ilin gəlişi münasibətilə Naxçıvan şəhərində möhtəşəm atəşfəşanlıq olub. Muxtar respublika sakinləri 2025-ci ili həmrəy şəkildə, xoş ovqatla qarşılayıblar.

# Naxçıvanda Miri Yusifin konserti maraqlı anlarla yadda qalıb



Naxçıvan Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə Naxçıvan şəhərinin Heydər Əliyev prospektində keçirilən "Snow fest – Qış festivalı"nın son günü maraqlı anlarla yadda qalıb.

Festival böyük izdihamla müşayiət olunub. Azərbaycanın Xalq artisti Miri Yusif hit mahnıları ilə dinləyicilərinə əsl bayram ab-havası yaşadıb.

Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı Naxçıvanda "Snow fest – Qış festivalı" sayəsində yüksək coşqu ilə qeyd edilib. Qeyd edək ki, festival çərçivəsində digər populyar ifaçıların iştirakı ilə maraqlı konsert proqramı, əyləncəli şoular, tamaşalar təqdim olunub.



# Qafqazda sülhün və sabitliyin qarantına çevrilən Azərbaycan

Vətən savaşı qələbə ilə başa çatdıqdan, üçtərəfli Bəyanatın imzalanmasından sonra bütün dünya Cənubi Qafqazda yeni eranın da başlanması üçün əsaslı bir zəmin yarandı. Regionda uzun zaman qapalı qalmış iqtisadi və nəqliyyat kommunikasiyalarının açılmasını şərtləndirən yeni üçtərəfli Bəyanat Cənubi Qafqazda bu zamanadək heç vaxt mümkün görünməyən sülh və əməkdaşlıq mühitinin artıq reallaşdırılmasına doğru atılmış əhəmiyyətli bir addım kimi qiymətləndirildi. Prezident cənab İlham Əliyev sülh müqaviləsinin də tezliklə imzalanacağına əminliyini bildirərək vurğulayıb: ***"Sülh müqaviləsinin beş prinsipi mümkün qədər tez paraflanmalıdır, sülh müqaviləsinin mətni üzərində iş bu prinsiplər əsasında başlamalıdır. Əminəm ki, buna tez nail olmaq mümkündür. Çünki hesab etmirəm ki, bu, hansısa çoxcildlik olmalıdır, bu, beynəlxalq hüquq, beynəlxalq təcrübə çərçivəsində parametrləri müəyyən edən bir neçə maddədən ibarət yetərincə yığcam sənəd olmalıdır. Bununla biz müharibə, düşmənçilik səhifəsini qapadacağıq".***

Əlbəttə, 30 illik işğal dövründə başımıza gətirilən müsibətlərin səbəbkarları ilə inteqrasiya prosesinin tez və asan baş verəcəyini düşünmək sadəlövhlük olardı. Bu iki dövlətin arasındakı düşmənçiliyin, daha doğrusu, ermənilərin türk düşmənliyinin aradan qaldırılması, inam mühitinin formalaşdırılması üçün zamana ehtiyac var. Daim humanist və sülhsevər bir dövlət olan Azərbaycanın dünya dövlətləri ilə qurduğu yüksəksəviyyəli diplomatik, etibarlı əlaqələri regionun stabil inkişafı və təhlükəsizliyinin təminatında ölkəmizin üzərinə düşən rolu uğurla yerinə yetirdiyini sübut edən amillərdən biridir. Dünya dövlətləri ilə yaratdığı münasibətlər xarici diplomatiyadakı uğurun göstəricisi olduğu kimi, Azərbaycan ərazisində yaşayan müxtəlif millətlərin nümayəndələrinin bir bayraq altında birləşməsi, Vətən müharibəsində döyüşüb şəhidlik məqamına yüksəlməsi daxili sabitliyin və birliyin nümunəsi oldu. Vətən müharibəsindən sonra Şuşada keçirilən ilk "Xarıbülbül" musiqi festivalında çıxış edən müxtəlif millətlərdən olan rəqs və mahnı qruplarının eyni səhnədə birləşməsi də bu birliyə nümunədir.

Bütün bunlar onu sübut edir ki, dövlətimiz insanların dinc-yanaşı yaşaması üçün əlindən gələni edib və postmüharibə dövründə Azərbaycan tərəfi sülh və əməkdaşlıq prinsiplərinə əsaslanan ardıcıl addımlar atmaqda davam edir. Amma onu da unutmamalıyıq ki, Cənubi Qafqazda sülh və təhlükəsizliyin bərqərar olması üçün qarşılıqlı addımlar atılmalıdır. Əlbəttə ki, xoş niyyətin, humanistliyin birtərəfli olması sülhün uzunmüddətli olmasına təminat verə bilməz. Uzun illərdir ki, torpaqlarımızı işğal edib və hər cür talana, təhqirə məruz qoyan, bu illər ərzində yüzlərlə insanımızın ölümünə səbəb olan erməni dövlətinin bacarıqsız rəhbərlərini isə nə öz vətəndaşlarının, nə də dövlətlərinin taleyi düşündürür. Bu şovinist tayfanın içərisindən çıxan nümayəndələr 44 günlük müharibədəki məğlubiyyətdən belə dərs almağı bacarmadı. Ermənistan rəhbərliyi Azərbaycan dövlətindən daha çox öz ölkəsinin vətəndaşlarının və Qarabağda yaşayan ermənilərin rifahı naminə iki ölkə arasında düşmənçiliyin aradan qaldırılmasına daha çox səy göstərmək, işğaldan azad edilmiş Azərbaycan ərazisində təxribat törətməyə cəhd edən qüvvələrin qarşısını almaq əvəzinə sülhdən yayınaraq atəşkəsi pozmağa can atdı.

Bizim bütün sülhsevər davranışlarımız və səylərimizə rəğmən erməni silahlı qüvvələri iki dövlət arasındakı şərti sərhədi postur və mövqelərimizi atəşə tutur. Bütün bunlara baxmayaraq, dövlətimiz sülh müqaviləsinin imzalanması üçün əlindən gələni edir. Ölkə başçısının ötən ilin son günlərində səsləndirdiyi ***"Mən ümid edirəm ki, bundan sonra da Ermənistan öz siyasətində Cənubi Qafqazda və eyni zamanda dünyada yaradılmış yeni reallıqları nəzərə alacaq. Cənubi Qafqazda yeni reallıqları biz yaratdıq. Vətən müharibəsi bu reallıqları yaratdı, dövlət suverenliyimizin bərpası bu reallıqları daha da gücləndirdi və biz Cənubi Qafqazda yaratdığımız yeni reallıqları diplomatik, beynəlxalq və siyasi müstəvidə təsdiqlədik. Bütün dünya yeni reallıqları qəbul edib"*** kimi haqlı qənaəti də bir daha bu sahədəki dövlət siyasətinin məhz hansı istiqamətdə aparıldığını sübut etdi. 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsinin tarixi əhəmiyyəti vardır və bu il təsadüfi seçilməyib. Vətən müharibəsindən və antiterror əməliyyatlarından sonra bütün ərazilərimizdə Azərbaycan dövlətinin Konstitusiya əsasları təmin edilib. Vətən savaşının beş, Azərbaycanın Konstitusiyasının qəbul edilməsinin 30 ilini qeyd edəcəyimiz 2025-ci il tarixə sülh ili kimi yazılacaq.

Tarixin bütün dövrlərində öz elinə-obasına, Vətəninə bağlılıqla seçilən biz azərbaycanlıların bəxtinə belə bir tayfa ilə qonşu olmaq rus çarının fərmanları ilə yazılıb. İllər keçdikcə böyük qardaşları Rusiyanın, əziz bacıları Fransanın köməyi ilə çarxını fırladan erməni dövləti günün birində kimlər üçünsə bir maşa olduğunu başa düşəcək. 44 günlük müharibədən sonra dalana çevrildiyini anlayıb, çıxış yolunun məhz Zəngəzur dəhlizindən keçdiyini anlayacaq.

✍ **Ramiyə ƏKBƏROVA**

## Baş redaktordan

**Sara ƏZİMOVA**

# "İstəyimiz quruca yoldur, özü də bizim olan"



Durduğum yer Zəngəzur dəhlizinin əsas nöqtələrindəndir. O nöqtə ki bizi Vətəndən Vətənə qovuşduracaq. Ötən günlərin birində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yerli televiziya kanallarına müsahibəsini böyük həyəcan və qürurla izlədik. Qulağımız səsdə, gözümüz yoldadır. Həmin müsahibədə Ali Baş Komandanın verdiyi mesajlar həm də bütün naxçıvanlıların səsi idi. Ali rəhbərin: ***"Zəngəzur dəhlizi açılmalıdır və açılacaqdır. Onlar bunu nə qədər tez başa düşsələr, o qədər də yaxşıdır. Biz belə vəziyyətdə qala bilmərik. Biz Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvana niyə müxtəlif, başqa yollarla getməliyik?"*** qənaəti tam tarixi ədalətə söykənən sualdır.

Bəli, axı biz niyə Vətənimizdən cismən ayrı düşmüşük? Bu hansı ədalətə sığır? Düzdür, bu gün bütöv Azərbaycan olaraq öz sözümüzün sahibiyik. Güclüyük. Qalibik. Suverenik. Amma… Amma bizim hələ ki, üzümüzdə olmayan quruca yolumuz var. O yol tarixən bizim olub. Min illər boyu naxçıvanlılar bu yoldan istifadə edərək Böyük Vətənə gedib-gəliblər. Ancaq bu gün Naxçıvan coğrafi baxımdan Azərbaycandan ayrıdır. Tarixdən məlumdur ki, strateji mövqeyi ilə seçilməsi Naxçıvanı vaxtaşırı gərgin siyasi mübarizələr meydanına çevirib. Ancaq qarşılaşdığımız bütün sınaqları qətiyyətlə dəf etmişik. İllərdir, çəkdiyimiz əziyyətlər, blokadanın həyatımıza gətirdiyi çətinliklərə dözmüşük. Milli dövlətçiliyin bərpası, qorunub saxlanılması və möhkəmləndirilməsi naminə fədakarlıq nümayiş etdirmişik. Yaşamışıq və yaşayırıq. Qazsız, işıqsız qaldığımız günlər olub. Amma sınmamışıq. O vəziyyətdə böyüyən naxçıvanlı gənclər də 2020-ci ildə 44 günlük Vətən müharibəsi zamanı Zəfər tariximizə öz adlarını yazdırdılar. Dünya Azərbaycan əsgərinin qələbəsini izlədi. Azərbaycan isə döyüşdü; cəbhədə, siyasət meydanında, informasiya məkanında. Və hər üç müharibənin qalibi oldu. Bütün dünya gördü ki, biz bizim olanı canımız bahasına da olsa, qaytarmağı bacarırıq. Sinəsini düşmən gülləsinə sipər edən igid oğullarımızın şəhidlik məqamına üzülsək də, qürurla, göz yaşlarımızla alqışladıq, qarşıladıq onları. Vətəni əmanət etdiyimiz igidlərimizi Tanrıya əmanət etdik. Bütün bunlar bu yolun açılmasına mane olanlara bir dərsdir. Nədir istədiyimiz? Bir quruca yoldur… Öz yolumuz... Bizim heç kəsin torpağında gözümüz yoxdur. 30 il əsarətdə qalan torpağımızı geri aldığımız kimi, özümüzə məxsus olan yolu da alacağıq. Sülh yolu ilə…

Əslində, bizə qarşı olan maneələri görür və başa düşürük. Və bu maneələri yaradanlar da yaxşı bilirlər ki, Naxçıvanın Azərbaycana qovuşması, bu qədim diyardan yol açılması dövlətimizin gücünə güc qatacaq.

Naxçıvan Şərqin qapısı olaraq tanınır. Bütün dünya bilir ki, Naxçıvan Şərqlə Qərb arasında körpü, Avropa ilə Asiya arasında bağlılıq, türk dövlətlərinin həmrəylik qapısıdır. Bu qapının dünyaya açılması Azərbaycanın xarici ölkələrlə əməkdaşlığını daha da möhkəmləndirəcək. Bu isə bizi sevməyənlərə sərf etmir axı...

Amma biz Vətənə qovuşmaq üçün səbir edirik, dua edirik. Biz naxçıvanlılar səbrimizin, duamızın, mübarizəmizin cavabını alacağımıza əminik. Əminik ki, uzun illərdir, yaşadığımız bu nisgil, bu həsrət bizim haqlı istəyimizlə bitəcək.

Ali Baş Komandanın jurnalistlərə verdiyi müsahibədən də bir daha gördük ki, onun hər bir qərarının arxasında məqsəd və hədəf dayanıb. Biz Prezidentimizə güvənir və ona arxalanırıq. Dünya səviyyəli diplomatın qətiyyətli, uzaqgörən SİYASƏTÇİNİN gələcəyə hesablanmış strateji gedişlərinin müsbət sonluğu şəksizdir.

Cənab Prezident! Biz bir xalq olaraq sizin bütün qərarlarınızın yanındayıq. Düz deyirlər: "Bütün qələbələr əvvəlcə insanın zehnində qazanılır". 22 ildir ki, çıxdığınız bu yolda nə dedinizsə, onu da etdiniz. Zəngəzura bağlı verdiyiniz mesaj da bu gün-sabah öz reallığını tapacaq. Biz naxçıvanlılar VƏTƏNDƏN VƏTƏNƏ qovuşacağıq.

## Ailə Sağlamlıq mərkəzlərinə yeni avadanlıqlar alınıb

Naxçıvan Muxtar Respublikasında səhiyyə sahəsində aparılan islahatlar sürətlə davam edir. Son dövrlərdə həyata keçirilən ən vacib layihələrdən biri Ailə Sağlamlıq mərkəzlərinin yaradılmasıdır. Bu layihə vətəndaşlara daha keyfiyyətli ilkin tibbi xidmətlər təqdim etməklə yanaşı, xəstəlik hallarının azalmasına və həyat keyfiyyətinin yüksəlməsinə şərait yaradır.

Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda Ailə Sağlamlıq mərkəzlərinin yaradılması və müasir tibbi avadanlıqlarla təchiz edilməsi nəzərdə tutulmuşdur. Bu çərçivədə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi tərəfindən Ailə Sağlamlıq mərkəzlərinə bir sıra vacib avadanlıqlar, o cümlədən rentgen aparatı, hematoloji analizator, EKQ, USM və digər zəruri avadanlıqlar alınmışdır. Bu avadanlıqların bir qismi təhvil verilmiş, qalan hissəsi isə qısa müddət ərzində təhvil alınacaq.

Naxçıvan Muxtar Respublikasında həyata keçirilən bu təşəbbüs bölgələrdə yaşayan sakinlər üçün xüsusilə əhəmiyyətlidir. Ailə Sağlamlıq mərkəzlərində bir çox tibbi yoxlanışların və diaqnostik xidmətlərin yerindəcə aparılması sayəsində sakinlər artıq uzaq məsafələr qət etmədən, vaxt və maddi resurslarına qənaət edərək yüksəkkeyfiyyətli tibbi xidmətlərdən faydalana bilirlər.

## Naxçıvan DİN-ə yeni xidməti avtomobillər verilib




Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına uyğun olaraq Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi tərəfindən Naxçıvan Muxtar Respublikası daxili işlər orqanlarının maddi-texniki bazasının gücləndirilməsi məqsədilə tədbirlər həyata keçirilir.

Bu istiqamətdə görülən işlər çərçivəsində müasir texnologiyalarla təchiz edilmiş "Kia Sportage", "Kia Optima", "BMW" markalı avtomobillər ictimai təhlükəsizliyin daha da etibarlı qorunması, gündəlik fəaliyyətdə operativliyin artırılması üçün şəxsi heyətin xidməti istifadəsinə verilib.

## Naxçıvan Dövlət Universitetində magistratura üzrə yeni ixtisaslar açılıb

Naxçıvan Dövlət Universitetinin magistratura səviyyəsində təhsilin bir çox sahələri üzrə kadr hazırlığı həyata keçirilir.

Universitetdə təhsilin bu səviyyəsi üzrə 2024-2025-ci tədris ilindən yeni ixtisaslaşmalar da açılıb. Bunlar Nanoelektronika, İnformatika, İnformasiya təhlükəsizliyi, Biznesin təşkili və idarə edilməsi (səhiyyənin idarə edilməsi), Beynəlxalq jurnalistika və sair ixtisaslaşmalardır ki, bu da günümüzün tələbidir. Mütəmadi olaraq əmək bazarının tələblərinə uyğun yeni ixtisaslaşmaların açılması istiqamətində işlər aparılır.

Qeyd edək ki, Naxçıvan Dövlət Universitetində 79 ixtisaslaşma üzrə 420 magistrant təhsil alır ki, onlara tədris axşam növbəsində aparılır.

# Nəsillərə ərməğan "100 ilin qəhrəmanları"




Naxçıvan Muxtar Respublikasının 100 illiyinə həsr edilən, "Şərq qapısı" qəzetinin layihəsi əsasında nəşr olunan "100 ilin qəhrəmanları" adlı kitabı sətir-sətir, kəlmə-kəlmə oxuduqca, səhifələri vərəqlədikcə anaların laylasını, ataların arzusunu eşidirəm sanki. Oğulların qəhrəmanlığına şahid oluram.

Cəmi 44 sətrə sığdırıb analar balalarını. Kimisi toyunu görə bilmədiyi balasının 22 illik şərəfli ömrünü, kimisi isə qəhrəmanlıqla dolu döyüş yolunu sığdırıb 44 sətrə. Qısa olsa da, şərəfli həyatından danışıb.

Hərəsi bir evin madarı, bir ananın son ümidi, bir gəlinin sonsuz sevgisi, üzünü görə bilmədiyi balasının atası olan bu igidlər haqqındakı xatirələr gələcək nəslə yadigar olub qələmə alınan hər sətirdə. Kitabı vərəqlədikcə, anaların öz balaları haqqında danışdığı xatirələrini oxuduqca igid Vətən oğullarının uşaqlığı, gəncliyi gəlir gözlər önünə. Oğlunun şəhadətə yüksəlməsinə dözə bilməyib onun yanına tələsmiş anaların yerinə isə atalar danışır igid oğulların həyatını. Düşmənə yaxın kəndlərdə yaşayan analar deyir ki, heç ağlıma gəlməzdi ki, düşmən gülləsinin səsi altında böyüyən bu uşaq gün gələcək o düşmənin səsini özü kəsəcək. Heç ağlıma gəlməzdi, bəy köynəyini kəfənlə dəyişib məndən xəbərsiz döyüşə tələsəcək oğlum. Bu balaca həyatda ürəyi dünya boyda oğul böyüyürmüş, sən demə. Oğlum Vətəni anasından çox sevirmiş, halal olsun ona ki, bayrağımızı Şuşada dalğalandırıb evimizə çox sevdiyi bayrağa sarılıb gəldi deyir analar.

Tək təsəllisi azad edilən torpaqda – Şuşada, Laçında dalğalanan üçrəngli, ay-ulduzlu bayraq, Zəngilandan gələn körpə, Xocalıdan eşidilən toy səsi olan analar. Qəhrəman ataların qızları, igidlər böyüdən qadınlar.

Xatirələr fotolarla bəzənir səhifələrdə. Vətən müharibəsinin ən gənc şəhidi Pərvizin, ilk həkim şəhidi Turqutun, nişan xonçaları məzarını bəzəyən Əlinin, Həsənin, Həmidin, Vüsalın, övladının üzünü görə bilmədən canını Vətənə fəda edən Azadın, Əlinin fotolardan boylanan gənc üzünə, gülən gözlərinə baxdıqca bir anlıq kədər bürüsə də, insanı anaların, ataların "Min oğlum olsa mini də Vətənə qurbandır. Oğlumun bəy köynəyi Vətənin zirvələrində ucalan bayrağımdır" kəlmələrini oxuyanda bu kədərin yerini qürur əvəzləyir. O zaman bir daha əmin oluruq ki, belə qəhrəman oğulları böyüdən analar var olduqca, bu Vətən də var olacaq. Onlar haqqında yazılan hər sətir bir dastana dönəcək, dildən-dilə keçib gələcək nəsillərə çatacaq. Koroğlunun, Babəkin, Xan çobanın, Qazan xanın, Şah İsmayılın qəhrəmanlıq dastanlarını oxuya-oxuya böyüyüb Vətəni bütövləşdirən oğulların yerini Şuşaya bayraq sancan, Xocalıda düşmən süngüsündə can verən körpələrin qisasını alan, Xankəndini azad edən igidlərin əfsanəyə dönən ömürlərindən vətənpərvərlik dərsi alan nəsillər alacaq. İgid Vətən oğullarının qəhrəmanlığından bəhs edən nəşrlər isə yüz illərin salnaməsi olacaq.

Yüz illər sonra da hər gün Qarabağda doğulan Günəş də, gecəni nura qərq edən Ay da, onları xatırladacaq hər kəsə.

Qədim Naxçıvanın 150 igidinin haqqındakı xatirələrlə dolu olan bu nəşr nəsillərə ərməğan olaraq hər şəhid evində öz yerini tutacaq.

**Ramiyə ƏKBƏROVA**

# Sevdası Vətən olanlar əbədiyyən yaşayacaq

*Bu günlərdə "Şərq qapısı" qəzetinin müxbiri, "Naxçıvan Qaziləri" İctimai Birliyinin mətbuat xidmətinin rəhbəri Ramiyə Əkbərovanın "Sevdası Vətən olanlar" adlı kitabını müəllif hədiyyəsi kimi qəbul edərək birnəfəsə oxudum. Oxudum və bəyəndim. Açıq deyək ki, şəhidlik mövzusunda yazmaq hər qələm sahibinin işi deyil. Şəhidlərdən yazmaq üçün mənən onlarla döyüş yolu keçməli, hiss-həyəcanını duymalı, Vətən sevgisini yaşamalısan. Çətindir, lakin şərəflidir.*




Bu mənada, Ramiyə xanımın qələmə aldığı "Sevdası Vətən olanlar" hər bir oxucu üçün qiymətlidir, dəyərlidir.

Kitabda 2020-ci ildə və sonrakı 3 ildə Qarabağın azadlığı uğrunda qəhrəmanlıq göstərən Şərur və Sədərək rayonlarından olan şəhidlər haqqında yazılar yer alıb.

Yeni nəşrdə çox sayda şəhid ailəsinin, döyüşçü yoldaşlarının, dostlarının, onları tanıyanların şəhidlərimiz barədə xatirələri qələmə alınıb, onlar şəhidlərimizin keçdiyi şərəfli döyüş yolu barədə təəssüratlarını oxucularla bölüşüblər.

Prezident, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında Zəfər tariximizin 44 günlük salnaməsini qanları ilə yazan igid əsgər və zabitlərimizin döyüş yoluna həsr olunmuş bu kitabın gənclərin hərbi-vətənpərvərlik tərbiyəsində önəmli rol oynayacağına şübhəm yoxdur. Bu kitabın özünəməxsusluğu ondadır ki, burada adıçəkilən hər bir şəhidin ömür yolu, qalib əsgər kimi formalaşdığı uşaqlıq illəri və həyatlarının ibrətamiz məqamları öz əksini tapıb.

Belə kitabların əsas məramı şəhidlərimizin adlarının əbədiləşdirilməsi, onların şərəfli döyüş yolunun və vətənpərvərlik nümunəsinin gələcək nəsillərə çatdırılmasıdır. Müəllif bunun öhdəsindən uğurla gəlib.

Bütün yazarların, qələm sahiblərinin şəhid və qazilərimiz qarşısında böyük mənəvi borcu var – onların qəhrəmanlıqlarını əbədiləşdirmək və gələcək nəsillərə çatdırmaq borcu. Ramiyə Əkbərovanın bu kitabı 43 qəhrəman şəhidə mənəvi borcunun bir qismidir. Bu sətirləri yazmaq üçün əsl qələm sahibinə xas istedada malik olmalısan: "Bu gün daha qürurludur bu bayraq, ay-ulduzu şölə saçır, çünki o, bütöv Vətən olub daha. Çünki o, Şuşa qalasında, Xankəndidə dalğalanır daha. Çünki o, şəhid oğulların bəy paltarı, zəfər bayrağı olub daha".

"Heç zaman sönməyən Günəşsən, türkün qadını" essesi Azərbaycana igid oğullar bəxş edən şəhid analarına olan borcun ifadəsidir. Müəllifə görə, xoşbəxt o insandır ki, Allahın imtahanından layiqincə çıxır və Ona nə qədər sadiq bir bəndə olduğunu sübut edir. Öz ölümü bahasına belə olsa... Əslində, bu amallar uğrunda ölmək ölümlərin ən şərəflisidir və bu ölüm yaşamaqdan min qat faydalı, insanlara haqq-ədalət uğrunda mübarizənin nə qədər şərəfli olduğunu anladır. Şəhidlər şərəf, qeyrət, ucalıq zirvəsidir, Şəhidlər azadlığın od-şimşək zərrəsidir. Şəhidlər tarixləşən – istiqlal türbəsidir, şəhidlər şimşək kimi buludlar saxlamazlar. Şəhidlər ölməzdirlər, ölməzi ağlamazlar!

Ramiyə xanım həm bir Azərbaycan qadını, həm də sağlamlığını 44 günlük savaşda Vətənə qurban verən bir zabitin həyat yoldaşı olaraq çalışıb ki, qələmə aldığı bu kitabda Azərbaycanın ərazi bütövlüyü, dövlət müstəqilliyi və suverenliyi uğrunda şəhid olmuş oğul və qızlarımızın xatirəsi ehtiramla yad etsin və bu həqiqətlər yetişən və yetişməkdə olan nəsillərə əmanət olunsun. Bunlar bizim sahib çıxacağımız ən dəyərlilərimizdir. Onlar bizim qürurumuz, fəxrimiz, güvənc yerimiz, hamımızın – bütün millətimizin başucalığıdır.

Ümid edirəm ki, şəhidlərimiz haqqında ailələrinin xatirələrindən bəhs edən bu kitabı hər bir oxucu qürur hissi ilə oxuyacaq.

**Hüseyn ƏSGƏROV**
*yazıçı-publisist*

# Naxçıvanda fiziki imkanları məhdud şagirdlər distant təhsilə cəlb olunur

*Ölkəmizdə, eləcə də muxtar respublikamızda təhsilin müasir tələblər səviyyəsində inkişaf etdirilməsi, illərdir ki, prioritet istiqamətlərdən birinə çevrilib. Sevindiricidir ki, sağlamlıq imkanları məhdud şəxslərin də təhsilə cəlb olunması və cəmiyyətə inteqrasiyası diqqətdə saxlanılıb.*



Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərən Distant Təhsil Mərkəzinin yaradılmasında da əsas məqsəd məhdud fiziki imkanlıların, təhsil müəssisələrinə gedə bilməyən məktəbyaşlıların ümumtəhsil proqramlarının evdə mənimsənməsini təmin etməkdir.

Bu günlərdə biz də həmin ünvana üz tutduq. Distant Təhsil Mərkəzinin təlim-tərbiyə işləri üzrə direktor müavini Aynurə İmamquliyeva bildirdi ki, distant təhsil uzaq məsafədən həyata keçirilən tədris prosesidir. Proses texniki vasitələr əsasında təşkil olunub. 2022-ci ildə Naxçıvan şəhər 2 nömrəli tam orta məktəbin binasında Distant Təhsil Mərkəzi üçün siniflər ayrılıb. Mərkəzdə, ümumilikdə, 7 yaşdan 18 yaşadək 27 şagird təhsil alır. Bu şagirdlər muxtar respublikanın müxtəlif bölgələrində yaşayırlar. Mərkəzdə 17 müəllim çalışır.

Mərkəzdə hər sinfə görə otaqlar, həmin otaqlarda kompüter, elektron lövhə, televizor qurğuları təşkil olunub. Distant təhsilin faydalarından danışan Aynurə xanım deyir ki, sağlamlıq imkanları məhdud uşaqlar bu vasitə ilə evlərində rahat təhsil ala bilirlər. Bu uşaqlar da cəmiyyətimizin bir fərdidir. Onların da təhsil almaq hüquqları var. Biz də belə uşaqlara verilmiş hüquqlardan onların normal istifadə etmələrinə çalışırıq. İstəyirik ki, bu uşaqlar da gələcəyin vətəndaşı kimi inkişaf etsinlər.

Distant təhsilə cəlb olunan fiziki imkanları məhdud Kənan Məmmədovla görüşdük. Culfa rayonunun Xanəgah kəndində yaşayan Kənanın 14 yaşı var: "Həmyaşıdlarım kimi məktəbə gedib təhsil almaq ən böyük arzum olub. Ancaq həmyaşıdlarımla birgə məktəbə gedə bilməsəm də, çox sevinirəm ki, bu gün təhsil ala bilirəm. Bunun üçün evdə hər cür şərait vardır. Demək olar ki, keçilən bütün dərslərdə iştirak edirəm. Müəllimlər dərslərimi yaxşı hazırlamağa böyük diqqət yetirirlər. Onların bizim üzərimizdəki zəhməti böyükdür. Mən də çalışıram ki, valideynlərim və müəllimlərimə verdiyim sözü tutub mənə göstərilən etimadı doğruldam".

Kənanın valideyni Sevinc Məmmədova bildirdi ki, oğlu distant tədrisə cəlb olunduqdan sonra onda xeyli irəliləyişlər müşahidə edib. Belə ki, o keçilən dərslərə həvəslə hazırlaşır. Bunun nəticəsində daha sərbəst danışmağı öyrənib. Distant təhsilin övladının həyatında böyük rol oynadığını bildirən Sevinc xanım indi gələcəyə daha ümidlə baxdığını dilə gətirir və yaradılmış şəraitə görə ailə üzvləri adından minnətdarlığını bildirir.

Bu sistemin muxtar respublikamızda tətbiqi sağlamlıq imkanları məhdud uşaqların təhsil almaq hüququnu təmin edib. Bu da məhdud fiziki imkanlıların valideynləri ilə yanaşı, həm də cəmiyyət tərəfindən təqdir olunur.

**Bülbül QULİYEVA**






# Ulu Öndər Heydər Əliyev: “Ölkəmizə bacarıqlı mütəxəssislər kimi qayıdın”



Əvvəlkilərdən fərqli olaraq budəfəki müsahibəmdə beş nəfər iştirak edirdi. Digər əsas fərq isə onların hamısının müasir Azərbaycan dövlətinin memarı və qurucusu Ulu Öndər Heydər Əliyevin diqqət və qayğısını öz üzərində lap yaxından görən insanlar olması idi. Lap dəqiqi odur ki, bugünkü həmsöhbətlərim Ümummilli Liderin təşəbbüsü və təşkilatçılığı ilə qardaş Türkiyənin müxtəlif ali təhsil ocaqlarında təhsil alıblar. Təhsillərini başa vurduqdan sonra Naxçıvana qayıdaraq müxtəlif vəzifələrdə çalışırlar. Onları sizinlə də tanış edirəm: Ərciyəs Universiteti İqtisadi və İdari Bilimlər fakültəsinin məzunu, Şərur Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Səfər Hüseynov, İstanbul Universiteti İqtisadiyyat fakültəsinin məzunu, Naxçıvan Muxtar Respublikası Perinatal Mərkəzin direktor müavini Elnur Həmzəyev, Qaradəniz Texniki Universitetinin məzunu, Kəngərli rayonunun Xok kənd tam orta məktəbinin direktoru Zal Rüstəmov, İstanbul Marmara Universiteti Fransız dili müəllimliyi fakültəsinin məzunu, Şərur rayonunun Aralıq kənd tam orta məktəbinin direktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi Elsevər Əliyev, Uludağ Universiteti Tarix fakültəsinin məzunu, Dövlət Məşğulluq Agentliyi Kəngərli rayon şöbəsinin sektor müdiri Səxavət Kamilov.

Bəri başdan onu deyim ki, müsahiblərimə ünvanlayacaq çoxlu suallar hazırlamışdım. Lakin söhbət elə maraqlı başladı ki, həmin sualların hamısını səsləndirməyə ehtiyac qalmadı.

***Səfər Hüseynov:*** – Azərbaycanda test imtahanı ilə ali məktəblərə qəbul başlanmazdan əvvəl ölkəmizdə Türkiyə universitetlərinə qəbul yeni üsulla keçirildi. İmtahan Naxçıvan şəhərindəki 3 və 12 nömrəli məktəblərdə təşkil edilmişdi. Etiraf edim ki, ovaxtkı mövcud vəziyyətə görə qəbul olmağa inamımız çox az idi. Bizim şansımız orada gətirdi ki, Ulu Öndər imtahanlarda iştirak etmişdi və onun təşəbbüsü ilə imtahan nəticələri yoxlanılmaq üçün Türkiyəyə göndərilmişdi. Deməli, nəticəyə kimsə təsir göstərə bilməyəcəkdi. Belə də oldu. Cavabların şəffaf şəkildə yoxlanılması sonradan bilindi. Cavablar qəzetlərin birində dərc edilib buraya göndərildi.

***Elsevər Əliyev:*** – Səfər müəllim danışdıqca Ulu Öndərlə bağlı həmin gün gözlərim önündə canlanır. Biz sadə ailələrin övladları olmuşuq. Məktəbdə yaxşı oxuyurduq. Bir məsələni xüsusilə vurğulamaq istəyirəm ki, qəbul imtahanlarında attestat qiymətlərimiz də nəzərə alınmışdı. 1992-ci ilin ağır günləri idi. Ölkədə çətin və ciddi siyasi proseslər gedirdi. Amma biz uşaq da olsaq, o dövrlərin çətinliyinə görə sanki tez böyümüşdük. Məktəbdən sonrakı vaxtlarımızda evdə ciddi hazırlaşırdıq ali məktəbə qəbul olmaq üçün. Xatırlayıram ki, Ulu Öndər Naxçıvana yeni gəlmişdi. O günlərdə Türkiyə söhbəti yox idi. Bakıya imtahan verməyə hazırlaşırdıq. Təyyarə isə 3-4 gündən bir uçurdu. Hamı da həmin dövrdə ali təhsil müəssisələrinə qəbul imtahanlarının şəffaf keçirilmədiyini bilirdi. Artıq bilet alınmışdı, səhəri uçacaqdıq Bakıya.

***Aidə İbrahimova:*** – Bəs sonra?

***Elsevər Əliyev:*** – Axşamçağı Naxçıvan Televiziyası elan etdi ki, Ulu Öndərimiz Türkiyə rəhbərliyi ilə görüşüb və Naxçıvana aid bir neçə məsələ ilə bağlı anlaşma imzalanıb. Bunlar içərisində təhsillə bağlı müqavilə də var. İmtahan verib yüksək nəticə toplaya bilən 75 tələbə dövlət hesabına oxuyacaq. Bunu eşitdikdə atam soruşdu ki, Elsevər, keçə bilərsən? Dedim ki, əlbəttə. Təyyarə biletini qaytardıq. Səhəri gün sənədləri Türkiyədə oxumaq üçün hazırladıq. Türkiyə ilə əlaqələr az olduğundan ünsiyyət bizə çətin gəlirdi. Onu da deyim ki, imtahan çox şəffaf keçirildi. Ancaq cavablarımız bir qədər gec gəldi. Təqribən, iki aya yaxın uzandı... Buna görə də tez-tez Ali Məclis binasının qarşısında toplaşırdıq. İntizarla cavabları gözləyirdik.

***Zal Rüstəmov:*** – O ərəfədə Ulu Öndər Ali Məclisin binasından görür ki, valideynlər və biz toplaşmışıq binanın qabağına. Soruşur ki, onlar buraya niyə yığışıblar? Cavab verirlər ki, Türkiyədə oxumaq üçün imtahan verən uşaqlar və onların valideynləridir. İmtahanların cavablarını gözləyirlər. Ulu Öndər elə o anda ovaxtkı təhsil nazirini çağıtdırdı ki, gedin Türkiyəyə, uşaqların imtahan nəticələrini gətirin. Nazirə bir saat vaxt verdi ki, məlumatı ona çatdırsın. Nazir də cavab verdi ki, baş üstə... Biz artıq arxayın olduq ki, cavablarımız 1-2 günə bilinəcək. Elə də oldu. Cavablar gəlib çıxdı. Bu, oktyabr ayının əvvəlləri idi... 5 il Türkiyədə ali təhsil aldıq. Oranı bitirdikdən sonra gəlib Vətənimizə xidmət edirik. Ulu Öndərlə görüşlərimiz sonralar da oldu. Türkiyəyə gedərkən Ali Məclisin binasında bizi şəxsən qəbul etdi. Tapşırmışdı ki, tələbələr valideynləri ilə gəlsinlər. Təqribən, 45 dəqiqəlik görüş oldu. Naxçıvan Televiziyası da çəkirdi. Ulu Öndər dedi ki, sizi qardaş ölkəyə göndəririk oxumağa. Orada yaxşı təhsil alın, savadlı kadr kimi yetişin. Gələcəkdə Vətənizə savadlı mütəxəssis kimi qayıdın. Onun nə demək istədiyini yaxşı başa düşürdük.

***Səfər Hüseynov:*** – Oktyabr ayında biz buradan Türkiyəyə yollandıq. Qeyd edim ki, Sədərəkdə döyüşlər gedirdi. Top səsləri eşidirdik. O vaxt düşüncələr bir az fərqli idi. Blokadanın ağır illərini yaşayan gənclər olaraq Türkiyədə elə bil, aydınlığa çıxmışdıq. Ankaraya yolçuluğumuza qədər Naxçıvanın ayrı-ayrı rayonlarından olan tələbələr bir-birimizə çox doğmalaşdıq. Fərqli şəhərlərdə, fərqli universitetlərdə oxusaq belə, bir-birimizlə sıx əlaqədə olmağa çalışırdıq.

***Elnur Həmzəyev:*** – Bizim təhsil prosesimiz tamamilə Ulu Öndərin nəzarəti altında idi. Çünki müqaviləni Ulu Öndər bağlamışdı. Həmin dövrdə Türkiyənin baş naziri Süleyman Dəmirəl idi. Xatirimdədir ki, 12 nömrəli məktəbdə imtahana girmişdim. Həmin məktəbi qızıl medalla bitirmişdim. İmtahanda birinci partada oturmuşdum. Artıq imtahan başlamışdı və test üzərində işləyirdik. Bir də gördük Heydər Əliyev içəri daxil oldu. Ayağa qalxdıq. Dedi ki, əyləşin. Mənə tərəf yaxınlaşıb əlini çiynimə qoydu ki, vəziyyət necədir? Yaza bilirsənmi? Dedim ki, çox sağ olun, yazıram. Soruşdu ki, qəbul ola biləcəyinə arxayınsanmı? Dedim ki, inşallah, qəbul olacağam.

***Elsevər Əliyev:*** – Ulu Öndərlə görüşümüzdəki söhbəti olduğu kimi xatırlayıram. Bizim üçün çox qürurlu idi. Biz anlayırdıq ki, görüşə valideynləri xüsusilə çağırıblar. Söhbət zamanı Ulu Öndər dedi ki, bir baba kimi deyirəm, bunlar mənim nəvələrimdir. Uşaqlarınız belə bir dönəmdə başqa bir ölkəyə gedirlər. Əmin olun ki, bizim kimi danışan, bizim kimi düşünən qardaş bir ölkədə təhsil alacaqlar. Heç nəyə görə narahat olmayın.

***Elnur Həmzəyev***: – O dövrdə sovet ölkəsindən xaricdə oxumağa uşaq göndərmək valideynlər üçün çətin idi. Ulu Öndər görüşdə bir kəlmə işlətdi ki, bunlar Türkiyəyə gedirlər. Bu günə kimi o qapı bizim üçün bağlı olub. Bu gün isə açıqdır. O vaxt insanlarda tərəddüd var idi. Oradakı valideynlər dedilər ki, siz dedinizsə, biz arxayın olduq. Ümummilli Liderimiz əminliklə valideynlərimizə bildirdi ki, orada şəraitləri yaxşı olacaq.

***Zal Rüstəmov***: – Dahi rəhbərin Naxçıvanda olması naxçıvanlılar üçün dəstək idi. İnanırdıq ki, O buradadırsa, bizim çətinliyimiz olmayacaq. Onun təşəbbüsü ilə biz gənclərin Türkiyəyə oxumağa göndərilməsi hamımızda böyük bir inam yaratmışdı.

***Səxavət Kamilov:*** – Biliyi olub, qəbul olmağa, həqiqətən də, ümid etməyən gənclər vardı. Yoldaşlarımın da dediyi kimi, düşünürdük ki, biliyə yer verilsə idi belə inanmırdıq qəbul olaq. Amma Ulu Öndərin sayəsində keçirilən imtahanda şəffaflığın təmin edilməsi bizim yolumuza işıq saldı.

***Elsevər Əliyev:*** – 1993-cü ildə Prezident seçildikdən sonra – 1994-cü ildə 150 nəfərlik heyətlə Türkiyədə səfərdə idi Ulu Öndər. Dekabr ayının 31-ni bizimlə birgə keçirdi. Hətta birgə şam yeməyində olduq. Həmin görüşdə qayğılarımızla yaxından maraqlandı. Bildirdi ki, sizə təqaüd də veriləcək.

***Aidə İbrahimova:*** – Eşitmişik ki, o vaxt Türkiyədə təhsil alan tələbələrə Azərbaycandan Türkiyəyə və əksinə, gedib-gəlmək üçün pulsuz bilet məsələsini də Ulu Öndər təşkil etmişdi.

***Elnur Həmzəyev:*** – Doğrudur. Tələbə olduğumuz müddətdə ildə bir dəfə dövlət hesabına ödənişsiz olaraq Vətənə gedib-gəlirdik. Bunun üçün Ulu Öndər təhsil nazirinə tapşırıqlar vermişdi ki, AZAL ilə əlaqə saxlayıb bu işi həll etsinlər. Bir söhbət də xatirimdən getmir. Dedi ki, bir gəncimiz vardı, özünə güvənən, o qəbul olubdurmu? Dedim ki, bəli, qəbul olmuşam. Sual verdi ki, hara qəbul olmusan? Cavab verdim ki, İstanbul Universitetinin İqtisadiyyat fakültəsinə. Dedi ki, afərin. Sizi gələcəkdə Azərbaycanda idarəçi vəzifələrdə görmək istəyirik və sizə inanırıq. Bu mənə çox qəribə göründü və ağlıma gəlməzdi ki, imtahanda mənim bir kəlmə sözüm dahi rəhbərin xatirində qalıb.

***Səfər Hüseynov:*** – 75 tələbə bu gün Ulu Öndərin əsərləri sırasındadır. Hamımız üçün Ulu Öndər bir zirvədir. Hamımız o zirvənin ətəyindəyik. O zirvəni daha yaxşı görmək üçün dayandığımız yerdən uzaqlaşdıqca Onu daha nəhəng görürük. Gənc də olsaq, Onun Vətəni, xalqı üçün etmək istədiklərini o vaxt hiss edirdik. Ulu Öndərin gənclərin xaricdə təhsil alması fikri əbəs deyildi. İstəyirdi ki, ölkəmizin gələcək həyatında bizim xüsusi rolumuz olsun. Hər kəs ayrı ölkədə gördüyü mütərəqqi bir modelin Azərbaycanda da tətbiqinə çalışsın.

***Elsevər Əliyev:*** – Gənclərin təhsil aldığı ölkələrdə göstərdiyi nəticələr də ölkəmizə qarşı müsbət imic yaradırdı. Ümumiyyətlə, xariclə tələbə mübadiləsinin dövlətin gələcək strateji siyasətində çox böyük rolu olur. Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında da xaricdə təhsil alan gənclərin əməyi danılmazdır.

***Səfər Hüseynov:*** – Biz orada keçirilən bir çox tədbirə necə deyərlər, bütün Azərbaycanımızı daşıyırdıq. Qatıldığımız tədbirlərdə minillik adət-ənənələrimizi nümayiş etdirməyə çalışırdıq. Dərk ediridik ki, üzərimizə düşən missiya var, onu yerinə yetirməliyik.

***Elsevər Əliyev:*** – Qarşımıza məqsəd qoymuşduq ki, hər nə olursa-olsun, Ulu Öndərin bizə bəslədiyi etimadı doğrultmalıyıq. Onu da deyim ki, Heydər Əliyev Türkiyəyə səfəri zamanı millət vəkillərini, ziyalıları, şair və yazıçıları oxuduğumuz universitetlərə göndərirdi ki, bizim təhsil şəraitimizlə, problemlərimizlə yaxından maraqlansınlar. Təhsil aldığım universitetdə tələbələrlə görüşdə mərhum Zəlimxan Yaqub bizə səsləndi ki, daha nə gözləyirsiniz dövlətimizdən? Sizin üçün nə lazımdırsa edir. Mən dedim ki, aspiranturada oxumaq istəyirəm. Zəlimxan müəllim bloknotuna nə isə qeyd etdi və bir gün sonra bizi çağırıb dedilər ki, artıq tapşırıq verilib. Türkiyədə təhsil alan azərbaycanlıların hər birinin adı qeyd olunub. Yəni hansınız universiteti bitirdiniz, avtomatik olaraq yüksək lisansa (lisenziya) qəbul ediləcəksiniz. Təbii ki, bu tapşırığı da Ulu Öndər vermişdi.

***Səxavət Kamilov***: – Bu gün Onun haqqında nə qədər danışsaq da, tövsiyələrinin və Vətən, xalq haqqındakı düşüncələrinin insana necə təsir etdiyini olduğu kimi çatdırmaq üçün söz tapmaq belə çətindir. Mən həmişə fikirləşmişəm ki, Heydər Əliyev heç bir sözü, fikri, sadəcə, söyləmək xətrinə deməyib. Onun hər sözü insanlarda bir ümid, bir stimul yaradırdı. Şəxsən mən həyatımda, işimdə Vətənə, millətə bağlılıq, öz yurdunu, xalqını sevməyi, dürüstlüyü, qarşıma qoyduğum məqsədimə çatmaq üçün yol nə qədər çətin olarsa-olsun, dözümlü olmağı dahi rəhbərdən öyrəndim. Türkiyə Respublikasına yola düşdüyüm gündən özümə söz vermişdim ki, diplomumu aldıqdan sonra ilk işim Vətənə qayıdıb hərbi xidmət borcumu yerinə yetirməkdir. Elə də oldu.

Bu gün fəxrlə deyirik ki, Ulu Öndərin ideyaları yaşadıqca Azərbaycan dövləti də yaşayacaq, daha da müasir, qüdrətli, olacaq, xalqımız dünyanın hər yerində daha məğrur gəzəcək. Düşünürəm ki, hər bir azərbaycanlı dünyanın hansı nöqtəsində yaşamasına, hansı işin sahibi olmasına baxmayaraq, Azərbaycan adına yaraşan fəaliyyət nümayiş etdirməlidir. Özünü və ölkəsini sevməlidir. Ulu Öndər də hər bir azərbaycanlıdan bunu istəyirdi.

***Səfər Hüseynov:*** – Vaxtilə Ulu Öndər tərəfindən toxumu səpilmiş bu təhsil ağacı bu gün Heydər Əliyevin siyasi kursunun ən layiqli davamçısı Prezident cənab İlham Əliyev tərəfindən göstərilən diqqət nəticəsində meyvələrini verməyə başlamışdır. Şükürlər olsun ki, bugünkü Azərbaycanımızda o zaman təhsil almış, müxtəlif sahələrdə öz bilik və bacarıqlarını həyata keçirən məzunlarımız az deyil. O çətin günlərdə bizim oxumaq üçün xarici ölkələrə göndərilməyimizin məsuliyyətini daim çiyinlərimizdə hiss edir və edəcəyik.

***Aidə İbrahimova:*** – Düşünürəm ki, bugünkü söhbətimizdə Ulu Öndərlə bağlı çoxlarına məlum olmayan məqamlar üzə çıxdı. Bu məqamlar ölkəmizin gələcəyini düşünmək, bu istiqamətdə tədbirlər həyata keçirməyin zəruriliyini vacib sayan dahi rəhbərin xarakter cizgiləri kimi diqqəti cəlb edir.

Bir daha sizə bizimlə belə maraqlı söhbətimizə görə “Şərq qapısı”nın kollektivi adından minnətdarlığımızı bildiririk.

**Aidə İBRAHİMOVA**



*“Şərq qapısı” qəzeti ötən ildən yeni layihəyə start verib. Belə ki, qəzetimizin nömrələrində şəhid analarının övladları haqqında xatirələri yer alır. 44 cümləyə sığışdırılacaq hər bir xatirənin şəhidlərimizə böyük sevgi və ehtiram kimi oxucularımız tərəfindən də maraqla qarşılanacağına əminliyimizi bildirir, şəhidlərimizin ruhu qarşısında baş əyir, belə igid oğullar böyütmüş analarımıza minnətdarlığımızı ifadə edirik. Bugünkü nömrəmizdə Ordubad rayonunun Əndəmic kəndindən olan şəhidimiz Ülvi Rəfiyevin anası Səyyarə Rəfiyeva, Sədərək rayonunun Dəmirçi kəndindən olan şəhidimiz Babək Allahverdiyevin anası Əsmər Allahverdiyeva və Ordubad rayonunun Ordubad şəhərindən olan şəhidimiz İlkin Quliyevin anası Reyhanə Zeynalovanın övladları haqqında xatirələri yer alıb.*

# 100 ilin qəhrəmanları

## Ülvi Rəfail oğlu Rəfiyev

*(16.08.1996-25.10.2020)*

### Vətən, torpaq uğrunda candan keçmək şərəflidir





Ülvi 16 avqust 1996-cı ildə Ordubad rayonunda anadan olmuşdu. Orta təhsilini Bakı şəhərində almışdı. Ülvi çox bacarıqlı, ağıllı idi. Üç yaşından bağçaya getməyə başladı. O, demək olar ki, bağçanın bütün tədbirlərində iştirak edirdi. Ülvinin həm də rəqs etmə bacarığı var idi. Bir neçə beynəlxalq tədbirlərə qatılmışdı. Hətta yarımfinala qədər yüksəlmişdi.

2013-cü ildə Azərbaycan Dövlət Neft və Sənaye Universitetinə daxil oldu. Həmin gün sevinə-sevinə evə gəldi. Dedi, ana, nə yaxşı ki, bu universiteti seçmişəm. Çünki universitetimizin rəqs qrupları da vardır, həmin rəqs qruplarında qeydiyyatdan keçdim. Orada həm oxuyub, həm də rəqsimə davam edəcəyəm. Balam elə gözəl rəqs edirdi ki... Onun rəqsləri hamının könlünü oxşayırdı. Ülvi rəqs edəndə elə bil, qanadlı quş idi. Sanki uçurdu.



2017-ci ildə Ülvi hərbi xidmətə yollandı. 2018-ci ildə hərbi xidmətini bitirib geri döndü. Sonra mənə dedi ki, ana, mən əsgərlikdə snayperçi olmaq istəyirdim. Amma siz buna imkan vermədiniz. Düzdür, mən qoymadım. Çünki çox qorxurdum. İçimdə bir sıxıntı var idi.

Sonra Ülviyə nişan apardıq. Sevdiyi qızla nişanladıq oğlumu. 2020-ci ilin iyun ayının 25-də üzüklərini taxdıq. Çox xoşbəxt idi mənim balam. Lakin xoşbəxtliyi sonacan yaşamaq nəsib olmadı. Bilmədim ki, bu onun son gedişidir.

Sentyabrın 21-i təlimlər başladı. Çox yalvardım Ülviyə. Dedim, oğul, qardaşın əsgərdi. Sən getmə, nişanlısan, toyuna hazırlaşırıq. Dedi, ana, mən getməyim, o getməsin, bəs kim gedəcək? Vətənimizi kim qoruyacaq? Ülvi nişan üzüyünü, qol saatını ovcuma qoydu. Dedi, ana, sən bunları yaxşı saxla. İnşallah, qayıdaram. Görüşüb, sağollaşıb getdi Ülvi.

Son görüşüm oldu balamla. Nişanının 4-cü ayının tamamında Ülvi şəhid oldu. Canımdan can getdi. Məni, atasını, qardaşını, nişanlısını Vətənə dəyişdi.

## Babək Bəxtiyar oğlu Allahverdiyev

*(30.05.1979-04.11.2020)*

### Babək həm mənim, həm də övladlarının qürurudur





Babəkin xatirələri çoxdur. Sakittəbiətli idi. Balaca vaxtlarından fərqlənirdi. Həm evdə, həm də məktəbdə çox sevilirdi.

Babək çox vətənpərvər idi. Fədakar, peşəsini sevən oğul olub. Məni də həddindən çox sevirdi. Son vaxtlarda başını çiynimə qoymaqdan yorulmurdu. Bir neçə dəfə soruşdum ki, Babək, niyə belə edirsən? Heç nə demirdi. Mən də başa düşmürdüm bu hərəkətini.

Xatırlayıram ki, həyətdə ağacın altında uzun müddət otururdu. Dərin fikrə gedərdi. Həmin yeri çox sevirdi Babək. Samovarı salan kimi tez gedib orada əyləşirdi.

Bir gün evə gəlmişdi. Dedim ki, Babək, darvazamız yerindən aşağı enib. Qapı örtülmür. Qapını qaldırıb düzəltmək lazımdır. Dedi ki, ana, düzəldərəm. Qapı örtülər. Hələ üzərinə bayraq da sancarıq. Mən çox düşündüm. Amma müəyyən edə bilmədim ki, Babək nə demək istəyir. Şəhid olduqdan sonra həyətə endim. Gördüm qapıdan bayraq asılıb. Babəkin dediyini xatırladım. Dedim ki, can bala, sən əvvəldən nə olacağın bilirmişsən.



Noyabrın 10-da oğlunun ad günü olacaqdı. İntizarla gözləyirdi. Lakin görə bilmədi. Ad günündən bir neçə gün əvvəl həyat yoldaşına zəng vurub. Deyib ki, Şuşanı azad edib oğlumun ad gününə mütləq qayıdacağam.

Elə Şuşa döyüşlərində də qəhrəmancasına şəhid oldu.

Şuşanın işğaldan azad olunması zamanı şəxsi igidlik və şücaət göstərdiyinə görə təltif edildi. Medala layiq görüldü. Düzdür, bir ana kimi qürurluyam. Amma bala itkisi məni yandırır.

Oğlumla fəxr edirəm. Babək həm mənim, həm də övladlarının fəxri, qürurudur. Vətən müharibəsində minlərlə oğul itirdik. Amma milyonlarla övlad qazandıq. İndi bütün Azərbaycan oğulları bizim balalarımızdır. Vətən sağ olsun!

## İlkin Rəfail oğlu Quliyev

*(15.04.2002-10.10.2020)*

### Mən sənə elə oğul olacağam ki, səsim daim ucalardan gələcək









İlkin 2008-ci ildə Bakı şəhərinin Sabunçu rayonundakı 310 nömrəli tam orta məktəbdə təhsil almağa başlamışdı. Oxuduğu müddətdə digər şagirdlərdən savadı ilə seçilirdi. Onun söylədiyi şeirlər, oxuduğu mahnılar hamısı Vətənə aid idi. Çox vətənpərvər idi İlkin. Arzusu o idi ki, torpaqlarımız işğaldan azad olunsun.

Dostları ilə birlikdə Qarabağda yaşayıb işləsinlər. Amma İlkin heç vaxt düşünməzdi ki, yaşamaq istədiyi torpaqların özümüzə qaytarılmasında o da iştirak edəcək, şəhid olacaq.

İkinci Qarabağ müharibəsinin başlandığı gündən döyüşlərdə iştirak edib. Ancaq bizə heç vaxt bu barədə bildirmirdi. Yalnız deyirdi ki, qorxmayın, hər şey yaxşı olacaq, qələbə bizimlədir. Sonuncu dəfə Füzuli istiqamətində gedən döyüşlərdə vuruşub. Həmin döyüşdə ağır yaralanmışdı. Yaralandığı zaman əlcəklərini çıxarıb əsgər yoldaşına əmanət edib ki, bunu ailəmə çatdırarsan. Onu dərhal Bakıya hərbi hospitala aparırlar. Orada komandiri İlkinin alnından öpür, “Qorxma, hər şey yaxşı olacaq”, – deyir. İlkin də “Qorxmuram, komandir. Məndən hamıya salam söyləyin”, – deyə cavab verir. Hərbi hospitalda da dünyasını dəyişir...

İlkinimin otağını təmizləyirdim. Bir də gördüm ki, həyətdə polislər, təcili yardım maşını dayandı. Demə, yoldaşım, qohumlar bilirlər. Amma mənə heç nə deməyiblər. Gəlib həyətdə gözləyirlər. O anda hiss etdim ki, artıq balam yoxdur. Sabunçu rayonu, Bakıxanov qəsəbəsindəki Şəhidlər xiyabanında dəfn olunub. O günə qədər İlkin bizim oğlumuz idi. Həmin gündən bütün Azərbaycanın balasıdır. Çox ağırdır mənə bunları demək. Hələ də balamın yolunu gözləyirəm. Gözüm hər yerdə onu axtarır. İnşallah, cənnətdə balama qovuşaram.

Mən qəhrəmanımla qürur duyuram. Ona görə ki, belə cəsur oğulun anası olmağı mənə Allah nəsib edib. İlkin deyirdi ki, ana, mən sənə elə oğul olacağam ki, səsim daim ucalardan gələcək. Elə bil ki, hiss edirmiş şəhid olacağını, ona görə belə deyirmiş. Şəhid balamla bağlı çox arzularım, istəklərim var idi. Amma hamısı yarımçıq qaldı. Balam on səkkiz yaşında şəhidlik zirvəsinə ucaldı. Vətən uğrunda canından keçdi. Bizi gözüyaşlı qoydu. Təsəllim isə odur ki, oğlum Vətən yolunda canını fəda edib. Onların uğrunda həlak olduqları torpaqlarımızda ayaq izləri var. Bilirəm ki, oğlumun ruhu şaddır. Vətənimizin bütövlüyü uğrunda canından keçən şəhidlərimizin, qəhrəman oğullarımızın sayəsində qazanılan Zəfərimiz isə əbədidir.

# Yerlə göyün birləşdiyi diyar – Tivi









Ötən ilin bu çağlarında ilk dəfə bu yaşayış məntəqəsinə getmək istəsəm də, havanın şıltaqlığı buna imkan verməmişdi. Güclü qarın yağması, dumanlı hava və yolda qalmaq qorxusu nədənsə fikrimizi dəyişmişdi. Kəndin Zəngəzur silsiləsinin ətəyində yerləşməsi ona əlavə gözəllik bəxş etməklə yanaşı, həm də qarlı havada bir qədər təhlükə yaradır: bir tərəfi uçurum olan yolda avtomobili idarə etmək heç də asan deyil. Hələ dəniz səviyyəsindən yuxarı qalxdıqca təzyiqin artması, başgicəllənməsi...

Bu məkanın enişli-yoxuşlu yolları, yerləşdiyi ərazi, çətinliyə sinə gərən insanlarının xoş niyyətləri qədərdir kəndin adının yaranma tarixi. Mistikası qədər rəngarəng olan adı bu kəndi, bəlkə də, yüksəklərə qaldırıb. Dəvə boynu kimi uzun və dolaylı yolları, bu yolların üzərində hər mövsümə uyğun olaraq ətir saçan bitkilərin qayalıqlardan boylanması elə bil, Tivinin adının tarixini özündə əks etdirir. Demək olar ki, təbiətin hər növ bitkisinə rast gəlmək mümkündür bu diyarda. Çoxları Tivi sözünün mənasının "ətir saçan", "dəvə boynu" olduğunu deyir. Lakin bulaqlarının qayalıqları dələrək hazin nəğmə kimi təbiətə bəxş etdiyi musiqiyə ad vermək mümkün deyil bu kənddə... Bənzəri olmayan bu kəndin adının yaranması bulaqların qayalıqlarla harmoniyasının vəhdəti ilə bağlıdır. Hansı fəslin olmasına baxmayaraq, qaynayan bulaqlar kəndin ətrafında yerləşən dağlardan, qayalardan süzülərək Günəş şüaları ilə birlikdə al-əlvan göyqurşağını yaradır. Qayalıqların xına rəngdə olması isə sanki qadınların saçlarında öz əksini tapıb...

Tivi sakinləri üçün ömrün müddəti deyil, bu ömrü necə yaşadığın əhəmiyyətlidir. Dağların ətəyində yerləşən bu yurd yerində yaşayan kənd sakinləri təbiətcə bir az fərqli olur. Zəhmətlə hər işin öhdəsindən gələn insanlar deyir ki, qonşunun səsinə səs vermək Tivinin adətidir. Demək olar ki, burada həyətlərin qapıları bağlanmır, qonşuluqda yaşayanlar bir-birinin evinə getmədikdə bu, ayıb sayılır. Hətta qazanlarını belə bir asırlar.

...Dağı sanki daşlaşmış "sinəsi" ilə saxlayan, uçurumu ovucuna alan, dağların döşündə özünə yer edən kəndi, nəhayət, görürük. Üzəri buz bağlamış sal qayanın üzərində dayanıb qarşıdakı dağın yamacında – Zəngəzur silsiləsində, Qapıcığın ətəyində, Gəmiqayanın köksündə salınmış bu möhtəşəm mənzərə bizi valeh etməyə bilməz. Donmuş bulaqlardan indi su səsi yox, buzların xırçıltılı səsləri eşidilir. Əslində, bu səs qədim yurd yerinin hər il üzləşdiyi mənzərədir. Qayalıqdan baxdıqda diqqəti daha çox dağın ətəyində yarı hündür, yarı alçaq tikili evlər cəlb edir. Evlərin bu tipdə tikilişinin səbəbi isə kəndə yağan güclü yağışlardan sonra gələn selin sürətini azaltmaq üçündür. Sakinlər deyir ki, kəndin ərazisindəki bütün evlər illər keçsə də, öz görkəmini dəyişmir.









Sıldırımlar arasında gizlənmiş kənddə bizi atlılar qarşılayır. Bəli, atlılar... Yanaqları qırmızı, gülərüz atlılardan eşitdiyimiz ilk söz "Həsənağa müəllim sizi gözləyir" olur. Bir vaxtlar oxuduğum Nəriman Nərimanovun "Bir kəndin sərgüzəştləri" əsəri beynimdə canlanır və suallar yaranır: "Görəsən bu kəndin də iki məhəlləsi var?" "Tivinin "Əmi"si, "Daşdəmir"i kimdir?"

Gedəcəyimiz ilk yerin kənd tam orta məktəbi olduğunu deyirik. Niyə məhz məktəb? Tivi kənd tam orta məktəbi öz uğurları ilə seçilir. Belə ki, bu məktəbdə heç bir şagird repetitor yanına getmir və ali məktəblərə elə məktəbdə hazırlaşır. Təbii ki, burada əsas iş müəllimlərin üzərinə düşür. Onların səyləri şagirdlərin belə uğur qazanmasında müstəsna rol oynayır. Məktəb direktorunun əlini sıxaraq "Bunu necə bacarmısınız?" sualını verirəm. "Bu bizim adətdir", – deyir. "Kənddə şagirdlərin təhsilinə böyük önəm verilir. Gələcəyimiz olan hər bir uşaq kəndimiz üçün zaman keçdikcə daha böyük işlər görürlər. Onlara biz bunu aşılamışıq və onlar da gələcək nəsillər üçün bunu edəcəklər. Hər il məktəbi bitirən şagirdlərin 80-85 faizi ali məktəblərə daxil olur. Şagirdlərimiz bunu, sadəcə, məktəbdə keçirilən dərslər sayəsində bacarırlar. Onların hər hansı bir çətinliyi olanda bütün müəllim kollektivi öz köməkliyini göstərir. Hətta uşaqların bilmədiyi bir şey olanda belə müəllimlərin evlərinə gedirlər", – deyə Nəsimi Sultanov sözlərinə davam edir.

Xəyalə İbrahimova isə Naxçıvandan bu kəndə dərs demək üçün gəlib və bu addımına görə qürur duyur. Deyir ki, kənddə məni ən çox cəlb edən şagirdlərin özünəinamı və gələcəyi bu dağların arxasından görməkləridir. Müəllimləri, şagirdləri gördükcə insanın beynində elə əsərdəki kimi cümlə pərgar edir: "Hansı xalq öz ixtiyarını və taleyini özgəyə tapşırmırsa, şərəfini və hüququnu öz gücü və birliyi ilə müdafiə edirsə, o xalq yaşamağa qadirdir".

Dağların ovucunda yerləşən bu kəndin sakinləri zəhmətləri ilə yaşayır. Şirzad Budaqov deyir ki, 70 yaşı olmasına baxmayaraq, hər işi özü görür: "Tivi daha çox balı ilə məşhurdur. Arı saxlayırıq, bəhrəsini də götürürük. Bu aylarda havaların soyuq keçməsinə baxmayaraq, yerli sakinlər ancaq təsərrüfat və heyvandarlıqla məşğul olur. Bizi buralarda saxlayan, buralara bağlayan zəhmətimizdir. Kəndimiz hər zaman adətləri ilə seçilir. Ələlxüsus da, axır çərşənbə günündə keçirilən at belində oyunlar daha böyük marağa səbəb olur. Qonşu kəndlərin cavanları bura gəlir, yarışır, qaliblər mükafatlandırılır".

Tivi həyat mənbəyi olan sudan heç vaxt korluq çəkməyib. Bu kəndin hər qayasından su süzür. Bu sular min bir dərdin dərmanı hesab edilir. Kənd ağsaqqalı Oruc Hüseynov deyir ki, ilin isti aylarında Tividə muxtar respublikanın istənilən bölgəsinin sakinini görmək mümkündür. Buna səbəb isə kənddə 100-ə yaxın bulağın olmasıdır. Burada olduğumuz müddətdə 3 müxtəlif bulağa getdik və fərqli mənzərə ilə rastlaşdıq. Ələlxüsus, Narzan bulağında. Bulağın suyu o qədər duru, dadlı olur ki, ağzını bulağa dayayıb eləcə hey bu suyu içmək istəyirsən. Buranın suyu saf olduğu qədər, həm də mədə-bağırsağın dərmanı hesab edilir. Yağış yağanda belə bulağın suyu bulanmır.



...Bütün evlərin damlarından sobaların çoxdan yandığı aydın görünür: havası sərt, bulaq suyu donmaz, insanı qonaqpərvər və istiqanlı. Tivi sanki yerlə göyün birləşdiyi diyardır. Hava bu diyarın zirvəsində də, ətəyində də sakit və təmkinlidir – elə insanı kimi.

Tivini yalnız bu cür xarakterizə etmək olar. Hava yavaş-yavaş qaralır, ancaq kənd sakinlərinin işi bununla bitmir. Bir azdan örüşdə olan heyvanlar gələcək, toyuq-cücə yemlənəcək, evlər səliqəyə salınacaq və soba başında şalını belinə bağlayan nənələr yemək çəkəcək.

Geri qayıtmaq üçün Həsənağa müəllim bizimlə bərabər yola düzəlir: "Kənd həyatıdır, günlərimiz belə keçir. Yəqin, Tivini bəyənərsiniz", – deyə yola "nərdivan" salır. Uzanan nərdivanda insan bir şeyi anlayır: Tanrı kənd sakininə səbri ömürboyu dözmək üçün yox, yaşadığı yeri düzgün seçmək üçün verib. Elə Tivi kimi...

Ceyhun MƏMMƏDOV







# Alın təri ilə islanan torpaq qurumaz



*Yolumuz Babək rayonunun mərkəzi Babək şəhərinədir. Ötən əsrin 70-ci illərində Ulu Öndərimiz Heydər Əliyevin səyi nəticəsində yaradılan və xalq qəhrəmanı Babəkin adı verilən rayon mərkəzi paytaxt şəhərimiz Naxçıvandan 5-10 kilometrlik məsafədə yerləşir. 5 mindən artıq əhalisi olan bu şəhər abad və müasir yaşayış məntəqələrindən biridir. Babəkdə təsərrüfatın bütün sahələri inkişaf etdirilir.*

İlin bu dövründə sözügedən yaşayış məntəqəsinə nə zaman səfər etsəniz, rayon mərkəzinə doğru uzanan yol üzərindəki həyət-bacalarda və əkin sahələrində böyük istixanaların olduğunu görəcəksiniz. Bu mənzərə ilə tanışlıq bizdə belə bir fikir yaratdı ki, istixanalarda nə yetişdirildiyini, hansı məhsullara daha çox üstünlük verildiyini gündəmə gətirək və istixanaların iş prinsipini sizin diqqətinizə çatdıraq…

Rayon mərkəzinə yenicə daxil olmuşduq ki, yolun kənarında böyük bir ərazini əhatə edən istixanada çalışan təsərrüfatçıları görüb həmin ünvanda ayaq saxladıq. Öyrəndik ki, bu istixanaların sahibi Babək şəhər sakini Qaray Əliyevdir. O, illərdir, öz halal qazancını torpaqdan götürür. Müsahibimiz deyir ki, təsərrüfatın müxtəlif sahələri üzrə kifayət qədər təcrübə qazanıb. Qaray Əliyev bizi istixana ilə tanış edib söylədi ki, havanın soyuq keçməsinə baxmayaraq, istixanaların hesabına burada müxtəlif növ göyərtilər yetişdirirəm. Bunlara keşniş, şüyüd, vəzəri, soğan və sairəni misal göstərmək olar. Məhsuldarlığı artırmaq əkin sahəsinə vaxtında göstərilən qulluqdan asılıdır. Məhsulları, əsasən, daxili bazarlarda satışa çıxarırıq. Günə 2 min dəstə göyərti bağlayıb bazara yollayırıq. Müsahibimiz fikrinə əlavə olaraq deyir ki, bu məhsullar böyük zəhmət hesabına başa gəlir. İstixana işi olduqca məsuliyyətlidir. Təsərrüfatın bütün sahələri kimi, bu işin də özünəməxsus qaydaları vardır. Çalışırıq ki, onlara vaxtlı-vaxtında əməl edək və yetişdirdiyimiz məhsullara düzgün qulluq göstərək.

Müsahibimiz söyləyir ki, o bu istixanaları bir-bir öz əli ilə ərsəyə gətirib. Ailə təsərrüfatı olduğundan onun ən yaxın köməkçiləri də elə təsərrüfatçının ailə üzvləridir. Qaray Əliyev deyir ki, rayonda və Babək şəhərində ilin bu vədəsində kimin həyətyanı sahəsinə üz tutsanız, mütləq təsərrüfatla məşğul olan ailələrə rast gələcəksiniz. Bu da təsadüfi deyildir. Çünki yurdumuzun torpağı, suyu məhsulun yetişməsi və bol olması üçün əlverişlidir.

Elə təsərrüfat sahibi ilə söhbətləşərkən qadınların göyərti yığdığını görüb onlara yaxınlaşırıq. Sözügedən təsərrüfat işində illərdir, çalışdığını deyən Təranə Əliyeva muxtar diyarımızın bərəkətli torpaqlarından ağızdolusu danışdı. Təranə xanım deyir ki, istixanada göyərtilərin təzə-təzə toplanıb satışa çıxarılmasına çalışırlar. Onu da qeyd edir ki, göyərti vitaminlə zəngindir. Ona görə də alıcılar belə məhsullara daha çox üstünlük verir. Bu göyərtilərdən Naxçıvan mətbəxində geniş istifadə edilir. Qış ayı olmasına baxmayaraq, zəhmət çəkib alın təri ilə qazandığımız pulla ailə büdcəmizə dəstək göstəririk. Hətta yurdundan uzaqda yaşayan insanlara sovqat göndəririk.

Ömrünü zəhmətə bağlayanların vaxtını çox almadan “Allah işinizi avand etsin”, – deyib təsərrüfat sahəsindən uzaqlaşırıq…

✍ **Bülbül QULİYEVA**

# 34 illik təcrübə:

## *“Qadınlara məsləhətim kişi işləri ilə məşğul olsunlar”*



“Aslanın erkəyi, dişisi olmaz”, – deyə söhbətə başlayır Bətura Hüseynova. Az zaman deyil onun bu sahədə fəaliyyət göstərməsi və bununla fəxr edir. Əslində, fəxr ediləsi peşədir: təsəvvür edin, bir diyarı, bir məmləkəti işığa qərq edirsən. 34 ildir, hər anı ciddi məsuliyyət ilə üz-üzə qalan Bətura xanım Culfa yarımstansiyasında çalışır. Dəyişilməz iş yerinin bura olduğunu deyir, danışdıqca gözündəki işığı görməmək mümkün deyil. Sanki illərdir, burada gözünün nuruna çevrilən cərəyan onun ruhuna hopub.

Əslində, illərə sinə gərən Bətura Hüseynovanın bu peşəni seçməsində, bilavasitə, rol oynayan onun babasıdır. Deyir ki, bu stansiya mənə təkcə işimə görə yox, həm də ailəmin burada çalışmasına görə doğmadır. Buna “ailə peşəsi” də deyə bilərik: illər öncə babası İsmayıl kişinin fəaliyyətə başladığı bu yarımstansiyada daha sonra atası çalışıb. Əmisi və qardaşı kimi Bətura xanım da bu peşəni seçib: “Bura mənə daha doğmadır. Bəzən bu peşəni seçməkdə məni qınadılar, lakin mən bu işlə 3 qızımı oxutmuşam. Peşəni seçməyimdə əsas səbəb babamın buranı sevməsidir. Çünki onun işinə nə qədər canla-başla yanaşdığını görürdüm. Bu məni daha çox cəlb etdi”.

Bətura Hüseynova nəinki Naxçıvanın, Azərbaycanın yeganə qadın dispetçeridir. Elektrik sahəsində, demək olar ki, hər şeyə bələddir. “Bəs evdə elektrik işlərini kim görür?” sualına gülərək “mən” cavabını verir. Deyir, cərəyandan qorxan adam heç vaxt burada çalışa bilməz: “Düşünürəm ki, bu işin çətin tərəfi yoxdur. Əsas məsələ işini sevməkdir, işini sevərək görsən, üstələyə bilməyəcəyin heç nə qalmayacaq. Xüsusilə bunu qadın olaraq edirsənsə, bu sənə əlavə stimul verəcək. Qadın böyük qüvvədir, öhdəsindən gələ bilməyəcəyi iş yoxdur. Asan tərəfi isə kollektivlə dil tapmağındır. Çalışdığın insanlar sənə ailədirsə, o zaman işin hər zaman asan olacaq”.

Bətura xanım təəssüflə deyir ki, indi ailəsində bu işi davam etdirən yoxdur. Qızlarının hər üçü müəllim kimi fəaliyyət göstərir, oğlu isə böyüyəndə pilot olmaq arzusundadır. Deyir ki, çalışdığım dövr ərzində bir çox maraqlı hadisələr başıma gəlib: “34 il ərzində iş vaxtı başıma çox hadisələr gəlib. Unutmayacağım bir məqam var: bir gün nazir Culfa yarımstansiyasına gələcəkdi və burada görülən işləri yerində görmək istəyirdi. O bura çatana yaxın stansiyada transformatorlar partladı (gülür), sanki atəşfəşanlıq idi. Onun özü də gələndə təəccübləndi, amma iş əsnasında belə hallar baş verə bilər”.

34 illik iş təcrübəsi ona həm də böyük uğurlar qazandırıb. Xanım dispetçer deyir ki, bu müddətdə çalışdığı peşə ev işlərinə heç vaxt mane olmayıb. Onun üçün ən uğurlu il isə ötən il olub. Belə ki, uzun müddət səmərəli fəaliyyətinə görə “Tərəqqi” medalına layiq görülüb: “Bu təkcə mənim işimə yox, qadınlara ölkə başçısı tərəfindən verilən qiymətdir”.

Sonda Bətura Hüseynova qadınlara bir məsləhət verməyi də unutmadı: “Qadınlara məsləhətim, tövsiyəm kişi işləri ilə məşğul olsunlar. Bu həm qadının gücünü, həm qadının zəhmətini, həm də qadının böyük qüvvə olduğunun göstəricisidir”.

✍ **Ceyhun MƏMMƏDOV**



### *İtmişdir*

Şərur rayonu, Dizə kəndində yaşamış Seyidzadə Mirsaleh Mirmöhsün oğlunun adına olan JN-276$^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Zamanov Əli Qafar oğlunun adına olan Yeni Azərbaycan Partiyasının vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Zeyvə kəndində yaşamış Cəfərov Mikayıl Hüseyin oğlunun adına olan JN-1420$^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Şahbuz rayonu, Kolanı kəndində Nəsirov Səxavət Əjdər oğlunun adına verilmiş JN-385$^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Ələkli kənd sakini Həsənov Ağa Həsən oğlunun adına verilmiş JN-339$^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Şahbuz şəhərində Quliyeva Nargilə Hüseyn qızının adına verilmiş JN-190$^{A}$ və JN-190$^{B}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə”lər itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Qarxun kəndində yaşamış Nəcəfova Tuyğun Əli qızının adına olan JN-214$^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Yaqubov Məzahir İlham oğlunun adına olan 75 BL 557 dövlət nömrə nişanlı avtomobilin texniki pasportu itdiyindən etibarsız sayılır.

ŞƏRQ QAPISI
Baş redaktor:
SARA ƏZİMOVA

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *info@serqqapisi.gov.az*

Qeydiyyat №: 575
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*
*Vöen: 0200065441*

Çapa imzalanmışdır 00:00
Tiraj: 1000. Sifariş № 7

*Nömrəyə məsul:* **Ramiyə Əkbərova, Aidə İbrahimova, Türkanə Əsədova**
*Dizayner:* **Lətif Zeynalov**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*